**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCAN TARİXİ PROBLEMLƏRİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

İxtisas: **5509.01 - "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları"**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Vidadi Umud oğlu Umudlu**

elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq şöbəsində" yerinə yetirilmişdir.

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Məhərrəm Paşa oğlu Zülfüqarlı**

professor, doktor
**Əhməd Özcan**

tarix elmləri doktoru, dosent
**Fərhad Rafiq oğlu Cabbarov**

tarix elmləri doktoru, dosent
**Tofiq Hümbət oğlu Nəcəfli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
**Vaqif Şirin oğlu Abışov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX-XX yüzillin əvvəllərində Şimali Azərbaycanda baş verən tarixi hadisələrin müxtəlif aspektlərdən tədqiqi və öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Öz mürəkkəbliyi ilə seçilən bu dövrün həm siyasi, həm də digər yönlərdən araşdırılması Türkiyə tarixşünaslığında da zaman-zaman tədqiqiqat mövzusuna çevrilmiş, mövzu ilə bağlı sanballı əsərlər yazılmışdır. Türk dünyasının bir hissəsi olan Azərbaycanın tədqiq olunan dövrdəki çox mürəkkəb tarixinin araşdırılmasına həqiqət prizmasından yanaşan Türkiyə tarixçiləri problemin obyektiv şəkildə araşdırılaraq türk oxucularına çatdırılmasında mühüm töhvələrini vermişlər. Türkiyə tarixşünaslığının geniş təhlili əsasında yazılan tədqiqat işində Rusiyanın Qafqazda, o cümlədən Şimali Azərbaycanda apardığı işğalçı müharibələr, işğaldan sonrakı kütləvi miqrasiya siyasəti, çarizmin müstəmləkəçilik sistemi və əhalinin bu sistemə qarşı mübarizəsi öz əksini tapmışdır. Eləcədə, dissertasiya işində XIX əsrin ikinci yarısında erməni millətçilərinin təsis etdikləri terrorçu təşkilatların, habelə Birinci Dünya müharibəsi illərində Rusiya tərəfindən formalaşdırılaraq Osmanlı dövlətinə qarşı döyüşə atılan "erməni könüllü birlikləri"nin törətdiyi vəhşiliklərdən bəhs olunmaqdadır. XX əsrin əvvəlləırində baş verən ictimai-siyasi və demokratik hərəkat, siyasi partiya və cəmiyyətlərin məqsədyönlü fəaliyyətinin obyektiv şəkildə işıqlandırılması da əsas tədqiqat obyeklərimizdəndir. Sadalanan bu mülahizələr dissertasiya işinin aktuallığını şərtləndirən əsas amillərdəndir.

Türk tarixçilərinin çarizmin işğalçı siyasəti ilə bağlı yazdığı çoxsaylı kitab və məqalələrlə tanışlığımız isə yalnız Azərbaycanın müstəqillik əldə etməsindən sonra mümkün olmuşdur. SSRI-nin dağılması ilə bir sıra sənədlərin əlçatmazlığına son qoyulması, türk tarixçilərinə əsl həqiqətləri aşkar edərək hadisələrin daha da obyektiv işıqlandırılmasna imkan vermişdir.

Tədqiq olunan dövrdə Osmanlı dövləti ilə Azərbaycan arasında münasibətlər çarizmin mövcudluğu səbəbindən heç də həmişə eyni səviyyədə olmasa da, əlaqələr müxtəlif səviyyələrdə davam etmişdir. XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinin

səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, Osmanlı imperiyası Rusiyanın Azərbaycanı zəbt etməsi ilə barışmaq istəmir, lakin hərbi gücü zəiflədiyi üçün bu işğala ciddi müqavimət göstərmək qabiliyyətində deyildi. Bəhs olunan dövrdə Azərbaycanda mövcud siyasi vəziyyət, Türkiyə tarixşünaslığında ətraflı şəkildə tədqiq olunmuşdur.

İkinci Rusiya-Qacar müharibəsinin acı nəticəsi olaraq meydana çıxan Türkmənçay müqaviləsi Azərbaycanın şimalında tarixi prosesləri kökündən dəyişərək, ölkəni çar Rusiyasının ağır müstəmləkə zülmü ilə üz-üzə qoydu. Mövcud dövlətçilik ənənələri ləğv edildi və Şimali Azərbaycan nəhəng Rusiya imperiyasının ucqar bir əyalətinə çevrildi. Bu müqavilə nəticəsində tarixi türk yurdu olan İrəvan və Naxçıvan xanlıqları da "özgəninkiləşdirilərək" qondarma "Erməni vilayəti" ilə əvəz edildi, Qacar və Osmanlı dövlətlərindən bura çoxsaylı erməni ailəsi köçürüldü. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı eyni zamanda yerli əhalinin Anadoluya kütləvi köçünə səbəb oldu. Köçlər bütün bölgələri əhatə etməklə yanaşı, Anadoluda çoxsaylı kənd və qəsəbələrin salınmasına gətirib çıxardı. Bəhs olunan bu hadisələr də Türkiyə tarixşünaslığında yetərincə tədqiq olunmuş mövzulardandır.

İşğaldan sonra müxtəlif istiqamətlərdə baş verən köçlər, eləcədə çarizmin özbaşınalığı, inzibati amirlik, iqtisadi və milli zülm, xristianlaşdırma siyasəti Azərbaycanda çarizmə qarşı kütləvi üsyanların, qaçaq hərəkatının, ümumiyyətlə istibdad əleyhinə mübarizənin şiddətlənməsinə səbəb oldu. Uzun zaman davam edən çarizmin müstəmləkəçi siyasəti və bu siyasətə qarşı mübarizə Türkiyə tarixşünaslığında dərin iz qoymuşdur. Hələ SSRİ-ni mövcud olduğu dövrdə belə tədqiq olunan hadisələr geniş təhlil olunmuş, çar Rusiyasının işğalçı siyasəti kəskin tənqidə məruz qalmışdır.

XIX əsrin son rübü və XX əsrin əvvəllərində Azərbaycanda, eləcədə Osmanlı imperiyasında baş verən hadisələrə "erməni məsələsi" və bunun nəticəsində törəyən erməni terror təşkilatları, onların pozuculuq fəaliyyəti öz damğasını vurmuşdur. Hadisələr öz məcrasından çıxaraq beynəlxalq müstəviyə keçmiş, çoxsaylı qiyam, təxribat və üsyanlarla müşaiyət olunmuş və nəticədə yüz minlərlə insanın məhvinə səbəb olmuşdur. Erməni terror təşkilatlarının Azərbaycandakı fəaliy-

yəti, 1905-1907-ci illərdə erməni millətçiləri tərəfindən törədilən qırğınlar, habelə I Dünya müharibəsində Rusiyanın tərəfində vuruşan erməni “könüllü birlikləri”nin çoxsaylı insanların məhvinə səbəb olan vəhşilikləri də, Türkiyə tarixşünaslığında geniş bəhs olunan mövzulardandır.

Araşdırılan problemlərin əsl mahiyyəti hərtərəfli təhlil olunaraq çoxsaylı kitab və məqalələrdə öz əksini tapmışdır. Bununla yanaşı “erməni məsələsi”ndən bəhs edən Osmanlı Arxiv sənədləri çoxcildli kitablar şəklində nəşr olunaraq beynəlxalq ictimayyətin də istifadəsinə verilmişdir. Bu nəşrlərdə, soyqırım iddası ilə çıxış edən “zavallı” erməni millətçilərinin əsl siması göstərilməklə yanaşı, xəyali “Böyük Ermənistan” dövlətini qurmaq üçün yerli müsəlman əhalinin məhv edilməsi, törətdikləri qeyri-insani hərəkət və vəhşilikləri təkzib olunmaz faklarla əks olunmaqdadır.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda da baş verən siyasi islahatlar, o cümlədən xalqın milli oyanışı və demokratik hərəkat, bir sıra cəmiyyət və siyasi partiyaların təşkili türk tarixçilərinin maraqla bəhs etdikləri mözulardandır. Tədqiqat işinin gedişində bu hadisələr Türkiyə tarixşünaslığının materialları əsasında xronoloji ardıcıllığa uyğun olaraq aid olduğu fəsillərdə verilməkdədir.

Göründüyü kimi, Azərbaycanın şimal hissəsi XIX yüzilliyin əvvəlindən çar orduları tərəfindən işğala məruz qalmış və ölkəmiz çar Rusiyasının siyasi təsir dairəsinə daxil edilmişdir. Bununla da Rusiya imperiyasının ucqar əyalətlərindən birinə çevrilən Şimali Azərbaycanda çarizmin uzunmüddətli müstəmləkə dövrü başlanmışdır. Şimali Azərbaycanda hökm sürən bu asılılıq istiqlalımızın əldə edilməsinə, yəni 1918-ci il mayın 28-nə kimi  davam etmişdir.

XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda baş verən mühüm hadisələr Türkiyə tarixşünaslığında obyektiv şəkildə və mövcud qaynaqlar əsasında tədqiq olunmuş, çoxsaylı monoqrafiya və elmi məqalələr işıq üzü görmüşdür. Türkiyə tarixçiləri öz ölkəsinin elmi ictimaiyyətini Şimali Azərbaycanda baş verən hadisələrlə tanış etmişlər. Sovet ideologiyası və siyasi-ideoloji konyunkturanın mövcud olduğu Azərbaycandan fərqli olaraq, Türkiyədə mövcud ictimai mühit hadisələrin obyektiv tədqiqinə imkan vermiş, hadisələrin bütün aspektləri

hərtərəfli işıqlandırmağa imkan vermişdir.Tədqiq olunan dövrdə tariximizin əsas məqamlarının Türkiyə tarixşünaslığında öyrənilmə dərəcəsi, təqdim edilən dissertasiyada öz əksini tapmışdır.

Türkiyə tarixşünaslığında bəhs edilən problemə bu və ya digər dərəcədə M.Saray, H.Baykara, B.Aslan, C.Taşkıran, Ö.G.İşyar, S.M.Bilge, C.Barlas, K.Karabekir, S.Şimşir, C.Gökçe, A.Saydam, G.S.Bozkurt, T.Sünbül, Y.Aslan, İ.Berkok, A.N.Kurat, M.Bİ, S.Laçiner, N.K.Sarıahmetoğlu, Y.Aslan, T.Akyol, K.Kaflı, İ.H.Altuntaş, Ş.Erel, C.Çağla, A.Çeçen, M.Aydın, F.Karabayram, E.Uras, M.Perinçek, B.Habiçoğlu, M.Yıldız, C.Yücel, H.Yeşilot, eləcədə mühacir tarixçilərimiz M.Ə.Rəsulzadə, N.Keykurun, M.B.Mehmetzade, A.Caferoğlu, Z.A.Makas, A.Attar (Haşimzade), və başqa müəlliflərin əsərlərində toxunulmuşdur.

Tədqiq olunan dövrdə türk tarixçilərinin Şimali Azərbaycanla bağlı apardıqları araşdırma və əldə etdikləri nəticələri xronoloji ardıcıllıq nəzərə alınmaqla ümumilikdə beş qrupa bölmək mümkündür. Bu qrupları müəyyən bir ad altında dəyərləndirməli olsaq bu işğal, müstəmləkə rejimi, məcburi köçlər, erməni məsələsi və milli-demokratik hərəkat kimi də adlandırmaq olar.

1. İşğal adlandırdığımız ilk qrupa daxil olan araşdırmalarda əsasən XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycan-Osmanlı münasibətləri, Rusiya işğalı və əhalinin müstəmləkəçilik əleyhinə mübarizəsi, Türkmənçay müqaviləsi və "Erməni vilayəti"nin təşkili əsas yer tutur.

2. Müstəmləkə rejiminə aid olan qrupa Şimali Azərbaycana kütləvi köçürmələr, inzibati amirlik siyasəti, milli və iqtisadi zülm, işğaldan sonra baş verən kütləvi üsyanlar daxildir.

3. Məcburi köçlər adlı üçüncü qrupa aid edilən araşdırmalarda çarizm tərəfindən Qafqaz, o cümlədən Şimali Azərbaycan əhalisinin Osmanlı dövlətinə köçə məcbur edilməsi, mühacirlərin Anadolu torpaqlarında məskunlaşması və onların Osmanlı cəmiyyətinə inteqrasiyası, eləcə də mühacirlər arasındakı görkəmli şəxslər haqqında türk tarixçilərinin məlumatları yer almışdır.

4. Bu qrupa "erməni məsələsi" ilə bağlı araşdırmalar, o cümlədən "Hınçak" və "Daşnaksütyun" partiyalarının da daxil olduğu ermə-

ni terror təşkilatlarının təşkili, fəaliyyəti, “erməni məsələsi”nin beynəlxalq səviyyəyə çıxarılması, 1905-1906-cı illərdə erməni millətçilərinin Azərbaycanda törətdiyi qanlı qırğınıar, “Böyük Ermənistan” uğrunda erməni millətçilərinin törətdiyi qiyamlar, təxribatlar, üsyanlar, habelə buna qarşı mübarizə daxildir.

5. Nəhayət beşinci qrup tədqiqatlarına XX əsrin əvvəllərində Şimali Azərbaycanda baş verən milli-demokratik hərəkat, milli şüurun oyanmasında Azərbaycan ziyalıları və milli burjuaziyasının rolu, partiya və ictimai təşkilatların, o cümlədən “Difai”, “Müsavat” partiyaları və “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin fəaliyyəti daxildir.

Qeyd etdiyimiz kimi, ilk qrupa aid etdiyimiz araşdırmalarda Şimalı Azərbaycanın, ümumiyyətlə bütün Qafqazın car Rusiyası tərəfindən işğalı, bu dövrlə məşğul olan türk tarixcilərinin əsərlərinə yetərincə öz damğasını vurmuşdur. Bu əsərlərdə Azərbaycan torpaqları uğrunda Osmanlı-Qacar-Rusiya mübarizəsi, Azərbaycan xalqının bu mübarizəyə münasibəti öz əksini tapmışdır. Bununla bağlı bəzi əsərlər haqqında məlumat vermək yerinə düşər.

Əsərlərində Azərbaycan tarixinin köklü məsələlərinin araşdırılmasına geniş yer vermiş türk tarixçisi Mehmet Saray tariximizlə bağlı bir sıra sanballı tədqiqatların müəllifidir. Bu tədqiqatlardan biri olan “Azerbaycan Türkleri Tarihi”[1]əsərində müəllif işğal ərəfəsində xanlıqların siyasi vəziyyətindən bəhs etmiş və Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına geniş yer vermişdir. M.Saray Gəncə xanlığının qəhrəman müdafiəsini və Cavad xanın iğidliyini xüsusi olaraq qeyd etmişdir. Həmçinin əsərdə Azərbaycanda yaşayan ermənilərin bir qismının istəyərək və bir qisminin də istəməyərək Rusiyanın Türkiyə əleyhindəki siyasətində bir vasitə kimi istifadə olunmasına məhkum olunduqları haqqında müddəalar diqqətə çatdırılmışdır. Müəllifin bu kitabı Azərbaycan tarixinin tədqiq olunan dövrünün araşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Müəllifin “Yeni Türk Cumhuriyetleri

[1] Saray, M. Azerbaycan Türkleri Tarihi / M.Saray. - İstanbul: İstanbul Matbaası, - 1993. - 149 s.

Tarihi”[2] adlı digər bir tədqiqat əsəri Qazaxıstan və Mərkəzi Asiyanın türk respublikaları ilə yanaşı, Azərbaycanı da əhatə etməkdədir. M.Saray qeyd edir ki, beynəlxalq hüquqa məhəl qoymayan Rusiya XIX əsrin ilk yarısında Azərbaycan və Qazaxstanı, XIX əsrin ikinci yarısında isə Orta Asiyanın türk ölkələrini işğal etmişdi. Bu türk dövlətlərini koloniyaya çevirmək üçün çoxlu əmək sərf edən ruslar, bu torpaqlarda maddi və mənəvi zərərlərə səbəb olmuşlardır. Bir əsrdən çox rus və sovet hakimiyyəti tərəfindən həyata keçirilən ruslaşdırma və sovetləşdirmə siyasəti türk dövlətlərini, xalqı milli mənliklərindən uzaqlaşdırmaqla bərabər son dərəcə mənfi izlər də qoymuşdur. M. Saray “Rus İşğalı Devrinde Osmanlı Devleti ile Türkistan Hanlıkları Arasındakı Siyasi Münasebetler (1775-1875)”[3] adlı araşdırmasında bir tərəfdən islam aləminin lideri hesab etdiyi Osmanlı dövlətinin Orta Asiyadakı müsəlman türk xanlıqlarına və Azərbaycana qarşı həyata keçirdiyi siyasəti açmağa çalışmış, digər tərəfdən də bu xanlıqların Osmanlı dövlətinə qarşı münasibətini izah etməyə səy göstərmişdir.

Tarixçi Mahmud Bi uzun illər üzərində çalışdığı ikicildlik “Kafkas Tarihi”[4] əsərində yüzlərcə qaynaq və sənədi təhlil edərək Qafqazın yerli xalqları, onların coğrafiyası və tarixini ətraflı şəkildə qələmə almışdır. Kitabda xalqın məruz qaldığı xarici hücumlar, aparılan müharibələr, sürgünlər və s. haqqında ətraflı məlumat verilmişdir. 1830-cu il Car-Balakən üsyanından bəhs edən müəllif üsyanın çox uğurla başlamasından və rusların mühasirəyə alınmasından bəhs etmiş, eləcə də üsyanın məğlub olma səbəblərini müəyyən etməyə çalışmışdır.

“Azerbaycan”[5] adlı əsərin müəllifi Ahmed Caferoğlu öz tədqiqat işinə bəzi xanlıqlar və çarizmin işğalçı siyasəti barədə qısa məlumat verməklə başlayır. Daha sonra müəllif Həsən bəy Zərdabi, Əhməd bəy

---

[2] Saray, M. Yeni Türk Cumhuriyyətləri Tarixi / M.Saray. -Ankara:Türk Tarih Kurumu, - 2014. - 514 s.

[3]Saray, M. Rus İşğali Devrinde Osmanlı Devleti İle Türkistan Hanlıkları Arasındakı Siyasi Münasebetler (1775-1875) / M.Saray. – Ankara: Türk Tarih Kurumu Yayınları, - 1994. - 188 s.

[4] Bİ, M. Kafkas Tarihi, / M.Bİ.– Ankara: Berikan Yayınevi, - 2011. - 2 Cilt, - 886 s.

[5]Caferoğlu, A. Azerbaycan / A.Caferoğlu. – İstanbul: Cumhuriyyet Matbaası, - 1940. 47 s.

Ağaoğlu, Əlimərdan bəy Topçubaşovun Azərbaycan türklərinin oyanışında göstərdikləri fəaliyyətlərə geniş nəzər salır. A.Caferoğlunun qələmə aldığı bir sıra məqalələr[6] də Azərbaycanın o dövr tarixinə işıq salmaqdadır.

Tarixçi Cemalettin Taşkıranın “Geçmişten Günümüze Karabağ Meselesi”[7] kitabı Qarabağın tarixinə işıq salmaqdadır. Müəllifin qələmə aldığı bu araşdırmada Qarabağın ümumi xüsusiyyətləri, xanlığın XIX əsrə qədərki siyasi tarixi, I Dünya müharibəsi və müharibədən sonrakı illərdə Qarabağın tarixi ilə yanaşı, Türkiyəninn Qarabağ siyasəti sənədlədıər əsasında işıqlandırılmışdır. Kitabda Türkmənçay müqaviləsindən sonra Qarabağa erməni köçündən və ruslar tərəfindən bölgənin demoqrafik vəziyyətinin ermənilərin xeyrinə dəyişdirmək cəhdlərindən bəhs olunur. Qarabağ probleminə həsr olunmuş “Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu”[8] adlı daha bir sanballı əsər tarixçi Ömer Göksal İşyarın qələminin məhsuludur. Kitabda müəllif çar Rusiyasından başlayaraq günümüzə qədər Qarabağda davam edən uzun və keşməkeşli tarixi proseslərdən bəhs etməkdədir. Müəllifin dördillik uzun və gərgin bir araşdırmasının bəhrəsi olan bu kitabda Qarabağ məsələsi rus - sovet xarici siyasəti baxımından işıqlandırılmış, Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalına da geniş yer verilmişdir.

Azərbaycan xalqının XIX yüzilliyin əvvəllərində işğalçılara qarşı qəhrəman mübarizəsi bir sıra başqa əsərlərin də əsas mövzusuna çevrilmişdir. Zeynal Abidin Makasın “Azerbaycanın Tarihi ve Kültü-

---

[6] Caferoğlu, A. Mirza Şefi Hakkında Notlar // Türkiyat Mecmuası, - 1928, sy. 2, s. 261-70.; Mirza Feth-Ali Ahundzade // Azerbaycan Yurt Bilgisi, I. Kanun - 1933, c. 2, sy. 24, s. 435-43.; İsmail Bey Gasprinski // Azerbaycan Yurt Bilgisi, Nisan - 1933, c. 2, sy. 16, s. 261-70. ; Azerbaycanda Maarif Hareketleri // Türk Kültürü, - 1964, c. 2, sy. 18, s. 130-36.; Azerbaycan Edebiyatı // Türk Kültürü El Kitabı, Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, - 1976, s. 465-83.

[7] Taşkıran, C. Geçmişten Günümüze Karabağ Meselesi / C.Taşkıran. – Ankara: Genelkurmay Basimevi, - 1995. - 267 s.

[8] İşyar, Ö. G. Sovyet-Rus Dış Politikaları ve Karabağ Sorunu / Ö.Ğ.İşyar. – İstanbul: Alfa, - 2004. – 706 s.

rel Coğrafyası”[9] kitabında Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalından, xüsusilə Qarabağ və Gəncə xanlıqlarının işğalından bəhs olunmaqdadır. Tarixçi Anıl Çeçen “Türk Devletleri” kitabında türklərin tarix səhnəsinə çıxmasından günümüzə qədər qurulan türk dövlətlərinin tarixi xronoloji ardıcıllıqla xülasə şəklində qələmə alınmışdır. Müəllif Azərbaycanın Rusiya tərəfindən işğalı və Azərbaycan Cumhuruyyətinin qurulması haqqında qısa məlumatla türk oxucusunu tanış edir.[10] Tarixçi Celaleddin Yücelin “Dış Türkler” kitabında 1801-ci ildə Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının başlanması, Gəncə xanlığının qəhrəman müdafiəsi, xanlığın işğal edilərək adının dəyişdirilməsi və s. hadislər öz əksini tapmışdır.[11]

2000-ci illərin əvvəllərində Türkiyə tarixşünaslığında tədqiq olunan mövzu ilə bağlı bir sıra dəyərli əsərlər işıq üzü görmüşdür. Bu əsərlərdən Muharrem Yıldız tərəfindən səkkiz ilə tamamlanan “Dünden Bugüne Kafkasya”[12] kitabında Qafqazda yaşayan müsəlman, o cümlədən türk xalqların həyatını işıqlandırmış, bu xalqların dini və sosial-mədəni həyatı tədqiq olunmuşdur. Əsərini Azərbaycanda başa çatdıran müəllif, Azərbaycan-Ermənistan müharibəsinin iztirablarını Azərbaycan xalqı ilə birlikdə yaşamışdır. Tarixçi Mustafa Aydının “Üç büyük gücün savaş alanı Kafkaslar”[13] kitabında müəllif Rusiya tərəfindən Şimali Azərbaycan xanlıqlarının işğalına və əhalinin istilaçılara mübarizəsinə geniş yer verir. Əsərdə həmçinin Osmanlı-Rusiya və Osmanlı-Qacar münasibətləri, Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələrinin gedişi, habelə Avropa dövlətlərinin dövrəyə girməsi və nəhayət, Qafqaz xalqlarının bağlanmış müqavilələrdən sonrakı durumu öz əksini tapmışdır. Adı çəkilən bu kitabı da Türkiyə tarixşünaslığında çox dəyərli tədqiqat işlərindən biri hesab etmək olar. Müəllifin

---

[9] Makas, Z. A. Azerbaycanın Tarihi ve Kültürel Coğrafyası / Z.A. Makas. - Ankara: Kök Yayınları, - 1990. - 60 s.

[10] Çeçen, A. Türk Devletleri / A.Çeçen. - İstanbul İnkilap Kitabevi, - 1986. - 567 s.

[11] Yücel, C. Dış Türkler / C.Yucel. – İstanbul: Hun Yayınları, - 1976. - 174 s.

[12] Yildiz, M. Dünden Bugüne Kafkasya / M.Yıldız. - İstanbul:Hazine Yayınları, - 2006. - 385 s.

[13] Aydın, M. Üc Büyük Gücün Çatışma Alanı Kafkaslar / M.Aydın. – İstanbul: Gökkubbe, - 2005, - 266 s.

Osmanlı zamanında ortaya çıxan "erməni məsələsi"ndən bəhs edən məqaləsində, bu məsələnin böyük güclərin əlində bir vasitə olduğunu qeyd edir.[14]

Bir çox türk tarixçiləri ümumqafqaz tarixi konteksindən bəhs edən çoxsaylı kitablar nəşr etdirmişlər. Bu kitablarda Qafqazın ümumi mənzərəsi verilməklə yanaşı, Qafqazın strateji əhəmiyyəti, Qaqaz xalqlarının azadlıq mübarizəsi, bu diyarın Osmanlı dövlətinin siyasətindəki yeri və rolu yetərincə yüksək qiymətləndirilmişdir. Bu kitablar müəyyən mənada Osmanlı dövlətinin siyasətində də öz təsirini göstərmişdir. Şimali Azərbaycan tarixinin bir sıra məqamları da bu kitablarda ümumi Qafqaz mənzərəsindən araşdırılmışdır. Bu əsərlərdən bəzilərini tədqiqat işində dövriyyəyə cəlb etməklə araşdırılan mövzunun zənginəşməsinə faydalı olacağını hesab edirik.

Çərkəz əsilli Osmanlı ailəsində yetişən Sadik Müfit Bilgenin qələmə aldığı "Osmanlı Çağında Kafkasya 1454-1829"[15] kitabı Qafqazın və onun bir hissəsi olan Azərbaycanın tarixinin araşdırılmasına öz töhvəsini vermişdir. Əsərdə, Osmanlı-Qacar və Rusiyanın bölgədə hakimiyyətini qorumaq məqsədli mübarizələri təqdim olunduğu kimi, Qafqaz xalqlarının günlük həyatları, adət-ənənələrinə dair çoxlu məlumat almaq mümkündür. Kitabda Qafqaz uğrunda mübarizə aparan dövlətlərin, yerli hökmdarların fəaliyyətlərini, apardıqları siyasəti, Qafqaz xalqlarının yaşadıqları çətinlikləri, acıları işıq üzünə çıxarmağı qarşısına məqsəd qoymuşdur. S.M.Bilgenin bu əsərini türk tarixşünaslığında Qafqaz tarixi üzrə Osmanlı nöqteyi-nəzərindən yazılmış hərtərəfli bir əsər kimi dəyərləndirmək mümkündür. İdeloji təsirlərdən uzaq olan bu əsər əsasən Osmanlı arxiv sənədləri və digər qaynaqlar əsasında qələmə alınmışdır. Müəllifin digər əsəri "Osmanli Devleti ve Kafkasya–Osmanlı Varlığı Döneminde Kafkasyanın Siyasi-Askeri Tarihi

---

[14] Aydın, M. Osmanlı Döneminde Ermeni Meselesinin Ortaya Çıkışı Ve Safhaları // Çeşitli Yönlerden Türk-Ermeni İlişkileri, İstanbul, - 2006. – ss.39-40

[15] Bilge, S. M. Osmanlı Çağında Kafkasya 1454-1829 / S.M.Bilge. - Istanbul Kitapevi – 2012. - 690 s.

ve İdari Taksimatı(1454-1829)”[16] adlanır. Osmanlı dönəmində Qafqazın siyasi-hərbi idari təşkilatlarını araşdıran S.M.Bilge Cənubi Qafqazda baş verə hadisələri geniş təhlil edərək dəyərli əsər ortaya qoya bilmişdir.

General İsmail Berkokun “Tarihte Kafkasya”[17] kitabı keçmiş SSRİ-nin hələ çox güclü olduğu 1958-ci ildə nəşr olunmuşdur. Kitabın VIII-XII fəsilləri əsasən Qafqaz - Rusiya müharibələrinin gedişi və nəticələrinə həsr olunmuşdur. Kitabın birinci cildi Qafqazın ruslar tərəfindən tam işğal olunduğu 1864-cü ilə gədərki dövrü, ikinci cildi isə 1864-cü ildən sonrakı dövrü əhatə edir. Müəllifə görə Qafqaz müharibələrinin bir bütün halında elmi cəhətdən tədqiq olunmaması onu bu işə vadar etmişdir. Tarixçi Akdes Nimet Kuratın “Türkiye Ve Rusya” əsərində[18] beynəlxalq məsələlərdən bəhs olunmaqdadır. Kitabda adı çəkilən iki dövlət arasındakı münasibətlər geniş şəkildə təhlil olunmuş, Rusiyanın Qafqazda yerləşmək siyasəti, eləcədə Rusiya və Qərb dövlətlərinin ermənilərdən öz məqsədləri üçün Osmanlı dövlətinə bir təzyiq vasitəsi kimi istifadə etmələri ətraflı şəkildə qələmə alınmışdır.

Muhammed Tahir El-Karakinin “Dağıstan Kılıçlarının Parlaması”[19] əsəri Dağıstan xalqının azadlıq mübarizəsi tarixindən, xüsusilə imam qazi Məhəmməd, imam Həmzət və imam Şamil dönəmlərindən bəhs edən önəmli bir tarixi qaynaqdır. Müəllif hər üç imamın apardığı müharibələrin şahidi olmuş və gördüyü hadisələri qələmə almışdır. Müəllifin özü imam Şamilin yaxın adamlarından olub, qəzavat vaxtında bir çox mühaharibələrdə iştirk etmiş elm adamıdır. Ərəb dilində yazılan bu əsər, müəllifin vəsiyyətinə görə ölümündən sonra nəşr edilmişdir. Ancaq ölümündən çox sonra, 1900-cu illərin əvvəllərində nəşr olunan əsərin xülasəsi belə rus kəşfiyyatı və siyasətincə dəyişdirilərək

---

[16] Bilge, S. M. Osmanli Devleti ve Kafkasya – Osmanlı Varlığı Döneminde Kafkasyanın Siyasi-Askeri Tarihi ve İdari Taksimatı(1454-1829) / S.M.Bilge. – İstanbul: Eren, - 2005. – 603

[17] Berkok, İ. Tarihte Kafkasya / İ.Berkok. – İstanbul: General, - 1958. - 549 s.

[18] Kurat, A. N. Türkiye Ve Rusya / A.N.Kurat. - Ankara: Kültür Bakanlığı, - 1990. - 735 s.

[19] El-Karaki, M. T. Dağıstan Kılıçlarının Parlaması / İstanbul: İnsan Yayınları, - 2014. - 407 s.

çap olunmuş, bu xülasənin belə dağlı xalqın əlinə keçməsinin qarşısı alınmışdır. Başqa bir tarixçi Fırat Karabayramın "Güney Kafkasya Jeopolitiginde Rusya Gerçeği"[20] kitabında Qafqazın tarixi inkişafı, Rusiyanın Cənubi Qafqaz siyasəti öz əksini tapmışdır.

Son dövrlərdə nəşr olunan kitablar arasında, Azərbaycanda xeyli araşdırmalar aparan tarixçi Okan Yeşilotun yazdığı "Ateş Çemberinde Azerbaycan"[21], Hacı Zeynelabidin Tağiyev[22] eləcədə həmmüəlliflərindən biri olduğu "Revan Türkleri"[23] və bu kimi digər əsərlər xalqımızın tarixi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirməkdədir. Müəllif həmçinin "Türkmençay Antlaşmasi Ve Sonuçları"[24] adlı məqalənin də müəllifidir. Azərbaycanın müstəqllik uğrunda apardığı mübarizəyə bir neçə kitab həsr edən Qars azərbaycanlısı Yavuz Aslanın "Can Azerbaycan-Karabağda talan var" kitabında[25] Qarabağ bölgəsi ilə bağlı araşdırmaların nərticəsi öz əksini tapmışdır. Y.Aslan həmçinin, Rusiya işğalından sonra İrəvan vilayətinin demoqrafik vəziyyətindən bəhs edən məqalənin də müəllifidir[26].

Dissertasiya işinin gedişində tədqiq etdiyimiz problemlə bağlı daha çox əhəmiyyət kəsb edən bir sıra məqalələrdən də yeri gəldikcə istifadə olunmuşdur. Tarixçi Şöle Yanar öz məqaləsində Qafqazın ruslar tərəfindən işğalı və müstəmləkə üsul-idarəsindən bəhs etməklə yanaşı, 1905-ci ildən sonra başlayan demokratik prosesləri, əsasən də Azərbaycanda kimlik arayışlarını geniş şəkildə təhlil etməyə çalışmış-

---

[20] Karabayram, F. Güney Kafkasya Jeopolitiginde Rusya Gerçeği / F.Karabayram. – İstanbul: - 2011. – 390 s.

[21] Yeşilot, O. Ateş Çemberinde Azerbaycan / O.Yeşilot. - İstanbul: - 2015. - 222 s.

[22]Yeşilot, O. Hacı Zeynelabidin Tağiyev / O.Yeşilot. - İstanbul:Yeditepe Yayınevi, - 2015. - 136 s.

[23] Yeşilot, O., Cabbarlı, H., Sarıahmetoğlu, N., Çapraz.. Revan Türkleri / O.Yeşilot, H.Cabbarlı, N.Sarıahmetoğlu. - İstanbul: Yeditepe Yayınevi, - 2016. - 338 s.

[24] Yeşilot, O. Türkmençay Antlaşmasi Ve Sonuçları // Erzurum A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi, - 2008. - Sayı 36, ss.187-199.

[25] Aslan, Y. Can Azerbaycan-Karabağda talan var / Y.Aslan. – Ankara: Kök Yayınları, - 1990. – 107 s.

[26] Aslan Y. Rus İstilasından Sovyet Ermenistan'ına Erivan Vilayeti'nin Demografik Yapısı (1827-1922) // Ankara: Yeni Türkiye Dergisi, - Mart-Nisan 2001. - Yıl 7, Sayı. 38, Ermeni Sorunu Özel Sayısı II - ss.1028-1029

dır."[27] Erol Kürkçüoğlu İrəvan şəhərindən bəhs edən məqaləsində, XIX əsrın əvvəllərində Rusiya tərəfindən süni olaraq qurulan Ermənistanın ərazisində əsrlər boyu türk insanının yaşadığını, türk adət-ənənəsinin və mədəniyyətinin bölgədə mövcud olmasını qeyd etmişdir.[28] Abdullah Temizkanın məqaləsində isə Qafqazda və Gürcüstanda Osmanlı dövləti, Rusiya ve İran kimi üç böyük gücün nüfuz mübarizəsi qələmə alınmışdır.[29]

Problemdən bəhs edən əsərlər sırasında Devlet Arşivleri Başkanlığı Osmanlı Arşivi (bundan sonra DABOA) sənədləri əsasında hazırlanmış "Osmanlı Belgelerinde Azerbaycan" [30] kitabı, ikicildlik "Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri "[31] adlı sənədlər toplusu, "Osmanlı Belgelerinde Karabağ"[32], "Osmanlı Arşiv Belgelerinde Nahçivan" [33] kitabları, "Osmanli Devleti ile Kafkasya, Türkistan ve Kırım Hanlık-

---

[27] Yanar, Ş. Azerbaycan'da Ebulfez Elçibey Döneminde Türk Kimlik Oluşumu // (der)Bekir Günay. – İstanbul: Avrupa'dan Asya'ya Sorunlu Türk bölgeleri, IQ Yayıncılık, - 2005. - s.575-62

[28] Kürkçüoğlu, E. Revan'dan Erivan'a Bir Şehrin Kimliği // YENİ TÜRKİYE, - 2014. Sayı 60, - s.1-13

[29] Temizkan, A. Rusya Ve Osmanli Devleti'nin Kafkas-Ötesinde Nüfuz Mücadelesi // İzmir: Türk Dünyası İncelemeleri Dergisi, - 2006./ Journal of Turkish World Studies, Cilt: VI, Sayı 2, Sayfa: - s.447-462

[30] Osmanlı Belgelerinde Azerbaycan / - İstanbul: Türk Dünyası Belediyeler Birliği (TDBB)Yayınları, - 2015. - 626 s.

[31] Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914 I kitab / Pr. Yön. İ.Binark. - Ankara: Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanliği Yayınları, - 1992. - 427s.; Osmanli Devleti Ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy II (1575-1918) / Pr. Yön. İ.Binark. - Ankara: Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanliği Yayınları, 1993. - 279 s.

[32] Osmanli Belgelerinde Karabağ / İstanbul:T. C. Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayını, - 2009. - Nu: 100, 119 sn. – 660

[33] Osmanlı Arşiv Belgelerinde Nahçıvan / Pr. Yön. Yusuf Sarınay. - İstanbul: T.C. Başbakanlık Devlet Arşivleri, - 2011. – 568 s.

ları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (1687-1908)”[34] adlı sənədlər toplusu Azərbaycan tarixinin araşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Arxiv sənədləri əsasında hazırlanmış bu kitablarda XIX əsrin əvvəllərində Azərbaycanda mövcud olan xanlıqlar arasındakı əlaqələr, Rusiya işğalına məruz qalan ərazilərlərlə Osmanlı dövlətinin münasibətləri, rus və ermənilərin həyata keçirdikləri zülmlər haqqında geniş məlumat almaq mümkündür. Osmanlı Arxivləri müdürlüyü tərəfindən hazırlanan bu toplular xronoloji cəhətdən əsasən XVI əsrin sonlarından Azərbaycan Xalq Cumhuriyyətinə qədər olan dövrün tarixini əhatə etməkdədir.

Rusiya işğalından sonra uzun zaman davam edən Qafqaz əhalisinin, o cümlədən Şimali Azərbaycan əhalisinin Osmanlı torpaqlarına məcburi köçü Türkiyə tarixşünaslığında çox aktual mözulardan hesab olunur. Mövzu ilə bağlı çoxsaylı tədqiqat işləri aparılmış, köçlər müxtəlif aspektlərdən işıqlandırılmışdır. Məcburi köçlərlə bağlı türk tarixçilərinin araşdırmalarına nəzər salmağı lazım bilirik.

Tarixçi Abdullah Saydamın “Kırım ve Kafkas Göçleri (1856-1876)”[35] kitabının əvvəlində müəllif “köç” terminin əsas mənası, köçlərin səbəb və nəticələrini müəyyən etməyə calışmışdır. Birinci bölmədə Krım və Qafqazdan olan köçlərə zəmin olan siyasi hadisələr ilə bu bölgənin coğrafi və etnik xüsusiyyətlərini; ikinci bölmədə bəhs olunan dövrdə baş verən köç hərəkətlərinin səbəblərini və reallaşması; üçüncü bölmədə isə Osmanlı Dövlətinin mühacirlərə münasibəti, göstərilən yardımlar, məskunlaşdırma siyasətinin əsasları və bu sahədə qarşıya çıxan çətinliklər araşdırma predmetinə çevrilmişdir. Məllifin istifadə etdiyi əsas qaynaqlar DABOA-dakı sənəd və icmal dəftərləri ilə yanaşı, dövrün qəzetləri olmuşdur. 1774-1829-cu illər arasında Cənubi Qafqazda cərəyan edən hadisələrə Osmanlı dövlətinin

---

[34] Osmanli Devleti ile Kafkasya, Türkistan ve Kırım Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (1687-1908) / Pr. Yön. İ.Binark. - Ankara: Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, - 1992. - 240 s.

[35] Saydam, A. Kırım ve Kafkas Göçleri (1856-1876) / A.Saydam. - Ankara: Türk Tarih Kurumu, - 2010. - 235s.

münasibəti Camal Gökçenin “Kafkasya ve Osmanlı İmparatorluöunun Kafkasya siyaseti”[36] əsərində də öz əksini tapmaqdadır. Əsərdə Osmanlı-Qafqaz münasibətləri DABOA -dan toplanan tarixi sənədlər işığında obyektiv şəkildə qələmə alınmışdır. Kitabda həmçinin Qafqazın etnik mənzərəsi, İslamın Qafqaza daxil olması və Qacar–Qafqaz münasibətləri öz əksini tapmışdır.

Tarixçi Nedim İpekin “Göçler. İmparatorluktan Ulus Devlete”[37] adlı əsərinin ilk fəsli 1864-1900-ci illərdə Qafqaz və Şərqi Anadoluda baş verən köçlərə həsr olunmuşdur. Həmçinin kitabda Osmanlı torpaqlarından Rusiyaya və Qafqazdan Anadoluya köçlərin səbəbləri, Rusiyanın məskunlaşdırma siyasəti təhlil olunur. Müəllifin “Kafkaslar'daki Nüfûs Hareketleri” və “Kafkaslardan Anadolu’ya Göçler 1877-1900” adlı məqalələri[38] də araşdırılan problemlərə həsr olunmuşdur. Digər bir türk tarixçisi Bedri Habiçoğlunun “Kafkasya’-dan Anadolu’ya Göçler ve İskanları”[39] kitabı yenə Qafqaz köçlərindən bəhs etməkdədir. XIX əsrin ikinci yarısında köçlərin kütləvi hal alma-sından bəhs edən müəllif köçlərin əsas səbəbinin Rusiyanın işğalçılıq siyasəti olduğunu qeyd edir.

Tarixçi Kamal Karpatın köçlərdən sonra Osmanlı dövləti və Qafqazdakı demoqrafik dəyişikliklərlə bağlı uzun illərdən bəri apardığı arşdırmaların nəticəsini özündə əks etdirən”Osmanlı Nüfusu (1830-1914): Demografik Ve Sosyal Özellikleri” [40]. adlı əsəri, 1985-ci ildə ABŞ-nın Visconsin Universiteti tərəfindən çap olunmuş və tarix Vakfı Yurd Yayınları tərəfindən türk dilinə tərcümə olunaraq nəşr olunmuş-dur Müəllif XIX-XX əsrin əvvəllərində Balkan, Qafqaz və Yaxın Şərqdəki ictimai və siyasi hadisələri tam olaraq dərk etmək üçün

[36] Gökçe, C. Kafkasya ve Osmanlı İmparatorluöunun Kafkasya siyaseti / C.Gökçe. - İstanbul: Şamil Egitim ve Kültür Vakfı, - 1979. – 190 s.
[37] İpek, N. Göçler. İmparatorluktan Ulus Devlete / 2006. - 418 səh.
[38] İpek, N. Kafkaslar’dakı Nüfus Hareketleri // Türkiyat Mecmuası, - 1997. C. 20, - ss. 273-313.; Kafkaslardan Anadolu’ya Göçler 1877-1900” // Samsun: Ondokuz Mayıs Üniversitesi Eğitim Fakültesi Dergisi, - 1991. S. 6, - s.100
[39] Habiçoğlu, B. Kafkasya’dan Anadolu’ya Göçler ve İskanları / B.Habiçoğlu. - İstanbul: Nart Yayıncılık, - 1993. - 187 s.
[40] Karpat, K. H. Osmanlı Nüfusu (1830-1914): Demografik Ve Sosyal Özellikleri / K.H.Karpat. - İstanbul: Tarih Vakfı Yurt Yayınları, - 2003. - 338 s.

Osmanlı əhalisinin sayca çoxluğunu, inkişafını, sürətini, dini-etnik birliklər kimi parametrlərini və bu hadisələrə təsir edən amillərin hərtərəfli şəkildə araşdılmasının vacib olduğunu qeyd edir.

Türk tarixçisi Cafer Barlasın "Hicretteki Dağistan"[41] əsəri köç edən Dağıstan və Azərbaycan mühacirlərinin Türkiyədəki həyatından bəhs olunmqadadır. Müəllif bu əsərində köçə məruz qalan görkəmli şəxsiyyətlər və onların varislərilərindən ətraflı şəkildə bəhs etməkdədir. Belə şəxsiyyətlər arasında, dövrün tanınmış alimləri və ictimai xadimləri olan olan İsmayıl Kürdəmiri Şirvani, Mehmed Zahid Kotku Əfəndi, Mehmed Rüşdi Şirvanizadəvə və bir çox başqaları yer almaqdadır. Mühacirlərimizin gələcək həyatını öyrənmək bu baxımından bu əsər mühüm əhəmiyyət daşıyır. Müəllifin digər əsəri olan "Dünü be Bugünü ile Kafkasya Özgürlük Mücadelesi" [42] əsərində uzun müddət Qafqazda genişlənən rus hakimiyyətini süpürüb atmaq üçün, işğala məruz qalmış bir ölkədə İmam Mənsur tərəfindən başladılan gəzavat hərəkatından bəhs olunur. Müəllifin həmçinin Dağıstanın siyasi həyatına həsr olunan məqaləsi[43] də müsəlman xalqın azadlıq mübarizəsindən bəhs edir. Ismail Hakkı Altuntaş tərəfindən qələmə alınan və Mehmet Öztürk tərəfindən tərtib olunan "Seyyid Ahmed Hüsameddin. Hayatı ve Eserleri" [44] adlı kitab rus istilası səbəbindən 1860-cı ildə Dərbəndin Rükkal kəndindən atası ilə birlikdə Türkiyəyə köç etmiş görkəmli şəxsiyət Seyid Əhməd Hüsaməddinə həsr olunmuşdur.

"Türkiyeye Göçler"[45] əsərinin müəllifi, Dağıstan əsilli Kadircan Kaflı öz əsərində Rusiya zülmündən qaçmağa məcbur edilən çoxsaylı insanın, o cümlədən Azərbaycan əhalisinin Anadoluya köçündən bəhs olunur. Əsərdə, ümumi olaraq köçlərin səbəblərindən bəhs edilməklə yanaşı, Azərbaycan və digər ölkələrdən Türkiyəyə baş verən köçlər və

---

[41] Barlas, C. Hicretteki Dağistan / C.Barlas. – Yalova: 2010. - 326 s.

[42] Barlas, C. Dünü ve Bugünü İle Kafkasya Özgürlük Mücadelesi / C.Barlas. – İstanbul: İnsan Yayınları, - 2010. - 485 s.

[43] Barlas, C. İmam Şamil ve Hicretteki Dağıstan Dağıstan'da islamiyet ulema ve mücahitler // YENİ TÜRKİYE, - 2015. S.79, - ss.190-207

[44] Altuntaş, I. H. Seyyid Ahmed Hüsameddin-Hayatı ve eserleri / Hazırlayan Musa Kazım Öztürk. – İzmir: - 1996. – 142 s.

[45] Kaflı, K. Türkiyeye Göçler / K.Kaflı. – İstanbul: Çeltük Matbaacilik, - 1966. -47 s.

mühacirət həyatının çətinlikləri əks olunmuşdur. Tarixçi Şərafəddin Erelin "Dağıstan ve Dağıstanlılar"[46] adlı kitabında Dağıstan və Şimali Azərbaycanda baş verən milli-azadlıq mübarizəsindən, imam qazi Məhəmmədin rus qoşunlarına vurduğu ağır zərbələrdən bəhs edir. Özü də mühacirət həyatı yaşayan müəllif, Anadoluya mühacirət etmiş bir sıra görkəmli şəxslər haqqında da məlumat vermişdir. Ş.Erel qədim pulların öyrənilməsi üzrə görkəmli mütəxəsis olmuşdur. Tarixçilər K.Kaflı və Ş.Erel də öz əsərlərilə türk oxucularınının diqqətini Qafqazda baş verən müharibələrə yönəldə bilmişlər.

DABOA-də köçlərlə bağlı yüzlərlə sənəd hivz olunmaqdadır. Bu sənədlərin əksəriyyəti ikicildlik "Kafkas Göçleri"[47] kitabında toplanmışdır. Kitab "Təlimatlar", "Məskunlaşma", "Yardımlar", "Problemlər" və "Çözüm Yolları" adlı dörd hissədən ibarətdir. Qafqaz, o cümlədən Azərbaycandan Anadoluya köçlərlə bağlı DABOA-da saxlanılan əksər arxiv sənədləri bu kitaba daxil edilmişdir.

Türkiyə tarixşünaslığında erməni millətçiləri və onların təmsil olunduqları erməni terror təşkilatları, onların fəaliyyətləri haqqında, ümumiyyətlə "erməni məsələsi" haqqında aparılan tədqiqat işləri həddindən artıq çox olduğundan, biz yalnız bu kitabların Azərbaycanla müəyyən mənada əlaqəsi olanlarını tədqiqat işinə daxil etməyi lüzumlu bildik. Bu kitablara nəzər salmaqla Azərbaycan tarixindəki erməni millətçilərinin vəhşiliklərini daha aydın üzə çıxarmağa imkan verəcəyi şübhəsizdir.

Azərbaycan xalqına tanış olan general Kazım Karabekrin "Ermeni Dosyası"[48] "adlı kitabı erməni terrorçularının fəaliyyəti və "erməni məsələsi"nin mahiyyətindən, habelə, bu məsələnin müstəqillik və muxtariyət xəyallarına düşən ermənilərin öz istək və ehtiyaçların-

---

[46] Erel, Ş. Dağıstan ve Dağıstanlılar / Ş.Erel. – İstanbul: İstanbul Matbaası, - 1961. - 264 s.

[47] Osmanlı Belgelerinde Kafkas Göçleri / Pr. Yön. Uğur Ünal. - İstanbul: T.C. Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları - 2012. I Kitab, – 586 s.; Osmanlı Belgelerinde Kafkas Göçleri / Pr. Yön. Uğur Ünal. - İstanbul: T.C. Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları - 2012. II Kitab, – 450 s.

[48] Karabekir, K. Ermeni Dosyasi / K.Karabekir. - İstanbul, - 1994. – 224 s.

dan deyil, böyük dövlətlərin bölgə üzərindəki mənafeləri baxımından qaynaqlanmasından bəhs olunmaqdadır. Tarixçi Esat Uras nəşr olunmuş erməni qaynaqlarını təhlil edərək "Tarihte Ermeniler ve Ermeni Meselesi"[49] adlı əsərini hazırlamışdır. Berlin konfransından əvvəlki və sonrakı vəziyyəti diqqətə çatdıran müəllif, erməni komitələri və onların siyasi proqramları, üsyanların başlanması, Mudros, Sevr və Lozanna konfransları, erməniçilik, eyni zamanda ermənilərin Qacar, Rusiya və Türkiyədəki vəziyyətləri haqqında müqayisəli şəkildə məlumatlar vermişdir. Tarixçi Kamran Gürün "Ermeni Dosyası"[50] adlı əsərində geniş sənədli material əsasında, beynəlxalq imperializm tərəfindən hazırlanmış və dövri olaraq istifadə edilən "erməni məsələsi"nin tarixinin tam təsviri verilmışdır. Erməni millətçi liderlərinin "Böyük Ermənistan" qurma ideyasından da bəhs edən bu kitab tarixçilər, siyasi elm adamları, milli məsələ üzrə mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Diplomat, Osmanlı dövlətinin Tiflisdəki səlahiyyətli səfiri Süreyya Bey Münir tərəfindən sənədlər əsasında hazırlanan "Ermeni Meselesinin Geçirmiş Olduğu Safahat-ı Siyasiyyeye Dair Tarihçe (1877-1914)" adlı hesabatı, erməni məsələsinin ortaya çıxması və inkişafında böyük dövlətlərin rolunu ortaya qoyur. Hesbatın dərc edilməsi ilə "erməni məsələsi"nin həqiqətdə nə olduğu, məsələnin təməlində hansı ünsürlərın və güçlərin dayandığı haqqında həqiqətlər dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Məllifin hesabat əsasında qələmə aldığı "Ermeni Meselesinin Siyasi Tarihçesi (1877-1914)" [51] kitabı Osmanlı İmperiyasının digər millətlər kimi ermənilərin də, hər cür azadlıq, mülkiyyət təhlükəsizliyi, təhsil və dil azadlığı, iqtisadi rifah və digər bütün azadlıqlarla təmin olunmasından bəhs edir.

[49] Uras, E. Tarihte Ermeniler Ve Ermeni Meselei / E.Uras. - İstanbul Belge Yayınları, - 1976. - 791 s.
[50]Gürün, K. Ermeni Dosyası / K.Gürün. - Ankara: Bilgi Yayınevi, - 2012. - 473 s.
[51] Münir, S. B. Ermeni Meselesinin Siyasi Tarihçesi (1877-1914) / S.B.Münir. – Ankara: T.C. Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayın, - 2001. - Nu: 53, 1079 s.

Tarixşi Yusuf Sarınayın arxiv sənədləri əsasında hazırladığı "Rusya'nın Türkiye Siyasetinde Ermeni Kartı (1878-1918)"[52] kitabında ermənilərin daha çox Rusiyanın xeyrinə fəaliyyət göstərdikləri, Birinci Dünya müharibəsində "könüllü birliklər" təşkil edərək rus ordusunun tərkibində vətəndaşı olduğu Osmanlı ordusuna qarşı vuruşmaları, habelə Osmanlıya qarşı rus-erməni ittifaqının təşkil olunmasından bəhs olunur. Arxiv sənədləri əsasında tərtib olunmuş Recep Karacakayanın "Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923 və "Ermeni Meselesi. Kronoloji ve Kaynakça" adlı kitabları [53] ermeni məsələsinin tədqiqinə öz töhvəsini verməkdədir.

Mehmet Perinçekin "Rus Devlet Arşivlerinden 150 Belgede Ermeni Meselesi"[54] kitabında müəllif illərdir davam edən "erməni məsələsi"nin tədqiqi işinə rus arxiv sənədləri əsasında öz töhvəsini vermişdir. Müəllif əldə etdiyi 150 arxiv sənədini orijinalları ilə oxuculara təqdim edərək bir sıra suallara, o cümlədən, ermənilərin Osmanlı İmperiyasında yaşama şərtləri, çar Rusiyası, İngiltərə və Fransanın "erməni məsələsi"ndəki rolu, Rusiya hərbi məhkəmələrinin Birinci Dünya müharibəsində erməniləri mühakimə etmə səbəbləri və çar generallarının erməni quldur dəstələri haqqında söylədikləri məsələlərinə aydınlıq gətirmişdir. "Ermeni Milliyetçiliğnin Serüveni. Taşnaklardan Asalaya Yeni Belgelerle"[55] də adlı digər əsərində müəllif bu günə qədər işıq üzü görməmiş qaynaqlara və onlardan hasil olan nəticələrə əsasən erməni millətçiliyinin tarixi macərasını qələmə almışdır.

Erməni məsələsindən bəhs edən digər bir əsər Seyid Sertçelikə aiddir. Müəllifin Moskva və Sankt Peterburq arxivlərinin materialları əsasında yazmış olduğu "Rus ve Ermeni Kaynakları Işığında Ermeni

---

[52] Sarınay, Y. Rusya'nın Türkiye Siyasetinde Ermeni Kartı (1878-1918) // Akademik Bakış, Yaz – 2008. Cilt 1, Sayı 2. – ss.69-105

[53] Karacakaya, R. Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923) / R.Karacakaya – İstanbul: Devlet Arşivleri Genel Müdürlügü Yayınevi - 2001. – 282 s.; Karacakaya, R. Ermeni Meselesi. Kronoloji ve Kaynakça / R.Karacakaya – İstanbul: Kurtiş Matbaaçılık 2005. - 471 s.

[54] Perinçek, M. Rus Devlet Arşivlerinden 150 Belgede Ermeni Meselesi / M.Perinçek. – İstanbul: Kırmızı Kedi Yayınevi, - 2013. - 336 s.

[55] Perinçek, M. Ermeni Milliyetçiliğnin Serüveni. Taşnaklardan Asalaya Yeni Belgelerle / İstanbul: Kaynak Yayınları, - 2015. - 360 s.

Sorunu Ortaya Çıkış Süreci”[56] adlı ikicildlik kitabı qondarma “erməni məsələsi”nin mahiyyətindən və iri dövlətlər tərəfindən ortaya atılmasından bəhs edir. Onu qeyd edək ki, bizim üçün də qitmətli olan bu əsər Azərbaycan dilinə tərcümə edilmişdir. Tarixçi Nesrin Sarıahmetoğlunun “Azeri-Ermeni İlişkileri 1905-1920”[57], Aygün Attarın (Haşimzade) “Karabağ Sorunu Kapsaminda Ermeniler ve Ermeni Siyaseti”[58] əsərlərində Azərbaycan tarixinin müxtəlif sahələri, o cümlədən erməni millətçilərinin Azərbaycanda törətdiyi qanlı qırğınlargeniş işıqlandırılmışdır. N. Sarıahmetoğlu həmçinin “Revan Türkleri” [59]əsərinin həmmüəlliflərindən biridir.

Erməni məsələsinin ətraflı araşdırılması üçün arxiv sənədləri əsasında tərtib olunmuş və 1841-1921-ci illəri əhatə edən üç cildlik “Osmanlı Belgelerinde Ermeni-Rus İlişkileri[60], habelə 1845-1895-ci illəri əhatə edən üç cildlik “Osmanlı Belgelerinde Ermeni-İngiliz İlişkileri”[61] “Osmanlı Belgelerinde Birinci Dünya Harbi I”[62], səkkiz cilddən ibarət “Arşiv Belgeleriyle Ermeni Faaliyetleri 1914-1918” [63] ki-

---

[56] Sertçelik, S. Rus ve Ermeni Kaynakları Işığında Ermeni Sorunu Ortaya Çıkış Süreci 1618-1914 / S.Sertçelik. - Ankara: SRT Yayınları, - 2016. - 416 s.; Rus ve Ermeni Kaynakları Işığında Ermeni Sorunu Ortaya Çıkış Süreci 1618-1914 / S.Sertçelik. - Ankara: SRT Yayınları, - 2016. - 590 s.

[57] Sarıahmetoğlu, N Azeri-Ermeni İlişkileri 1905-1920 / N.Sarıahmetoğlu. – Ankara: Türk Tarih Kurumu Yayınları, - 2006. – 535 s.

[58] Attar, A. (Haşimzade). Karabağ Sorunu Kapsaminda Ermeniler ve Ermeni Siyaseti / A.H.Attar. – Ankara: 2005. -

[59] Yeşilot, O, Sarıahmetoğlu N. Revan Türkleri / O.Yeşilot, N.Sarıahmetoğlu. - İstanbul: Yeditepe Yayınevi, - 2016. - 338 s.

[60] Osmanlı Belgelerinde Ermeni-Rus İlişkiləri(1841-1898) / - Ankara, - 2006. – C. I - 168 s.; Osmanlı Belgelerinde Ermeni-Rus İlişkiləri (1899-1906) / - Ankara, - 2006. – C. II, - 221 s.; Osmanlı Belgelerinde Ermeni-Rus İlişkiləri (1907-1921) / - Ankara, - 2006. – C. III, – 231 s.

[61] Osmanlı Belgelerinde Ermeni-İngiliz İlişkileri (1845-1890) / - Ankara: - 2004. – C. I, 243 s. Osmanlı Belgelerinde Ermeni-İngiliz İlişkileri (1891-1893) / - Ankara: 2004. C. II, 551 s..; Osmanlı Belgelerinde Ermeni-İngiliz İlişkileri (1894-1895) / - Ankara: - 2006. – C. III, - 547 s.

[62] Osmanlı Belgelerinde Birinci Dünya Harbi / - İstanbul, - 2013. –C.I, – 343 s.

[63] Arşiv Belgeleriyle Ermeni Faaliyetleri (ABEF) 1914-1918 / - Ankara: 2005. - cilt I, - 717 s.; ABEF / - Ankara: - 2005. – C.II, - 653 s.; ABEF / - Ankara: - 2006. – C.III, - 714 s.; ABEF / - Ankara: - 2006. – C.IV, - 742 s.; ABEF / - Ankara: - 2007.

tabları mühüm əhəmiyyət kəsb edir. Arxiv sənədlərindən ibarət "Osmanlı Belgelerinde Ermenilerin Sevk Ve İskanı (1878-1920)"[64] kitabında 1877-1878-ci illər Osmanlı-Rusiya müharibəsi nəticəsində imzalanan Berlin müqaviləsi ilə beynəlxalq məsələyəyə çevrilən "erməni məsələsi"indən bəhs olunmaqdadır. Bu məsələ başda Rusiya olmaq üzrə, bölgədə fəaliyyətləri olan Avropa dövlətlərinin Osmanlı dövlətinə təzyiq vasitəsi olaraq istifadə etdikləri bir problem halına gəlmişdir.

Ümumiyətlə erməni məsələsi ilə bağlı Türkiyə tarixşünaslığında samballı əsərlər yazılmış, problemin izahına geniş yer verilmişdir. Belə kitablara misal olaraq Y.Halaçoğlunun[65], M.Hocaoğlunun[66], C.Anadolun[67], C.Küçükün[68] və başqa müəlliflərin kitabları qeyd olunmalıdır.

Türkyə tarixşünaslığında erməni məsələsi və qırğınları ilə bağlı çoxsaylı məqalələr də yazılmışdır. Əsasən arxiv sənədlərinə istinad edən bu məqalələrdə məsələnin mahjiyyəti ətraflı şəkildə izah olunur, hadisələr obyektiv şəkildə işıqlandırılır. Əlbəttə bu məsələ ilə bağlı çap olunan məqalə xeyli çoxdur və onların hamısından bəhs etmək mümkün deyil. Sadəcə erməni komitələrinin fəaliyyətindən bəhs edən bəzi məqalələrin adını çəkməyi lazım bildik

Tarixçi O.Doğanın erməni komitələrindən bəhs edən məqaləsi, erməni camaatı üzərində geniş təsirə malik olan "Hınçak" və "Daşnaksütun" partiyalarının pozuculuq fəaliyyətləri haqqında məqaləsi[69] əhə-

---

– C.V, - 605 s.; ABEF / - Ankara: - 2008. – C.VI, - ; ABEF / - Ankara: - 2008. – C.VII, - ; ABEF / - Ankara: 2008. – C.VIII, - 595 s.

[64] Osmanli Belgelerinde Ermenilerin Sevk Ve İskani (1878-1920) / - Ankara: T.C. Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, - 2007. - Yayın Nu: 91, - 1224 s.

[65] Halaçoğlu, Y. Ermeni Tehciri ve Gerçekler / Y.Halacoğlu. – Ankara: 2001. – 107 s.

[66] Hocaoğlu, M. Arşiv Vesikalarıyla Tarihte Ermeni Mezalimi Ve Ermeniler / M.Hocaoğlu. – İstanbul: Anda Dağıtım, - 1976. – 872 s.

[67] Anadol, C. Tarihin Işığında Ermeni Dosyası / C.Anadol. – İstanbul: IQ Yay., - 2002. – 496 s.

[68] Küçük, C. Osmanlı Diplomasisinde Ermeni Meselesinin Ortaya Çıkışı (1878-1897) / C.Küçük. - İstanbul Üniversitesi Yay., - 1984. – 200 s.

[69] Doğan, O. Ermeni Komiteleri Hınçak ve Taşnaksütun (Rus Adalet Bakanı Y.Muravyevin Ermeni Komitelerine İlişkin Raporu // Konya: Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, - 2008. - Sayı 20, - ss.307-328.

miyyətli məlumatlara zəngindir. N.Günayın qələmə aldığı məqalə[70] Birinci Dünya müharibəsində erməni quldur dəstələrinin fəaliyyətindən bəhs edir.

Dissertasiyada, həmçinin tədqiq olunan məsələ ilə bilavasitə məşğul olan bir sıra Avropa və digər tarixçilərin türk dilində çap olunmuş elmi əsərlərindən də istifadə olunmuşdur.[71]

Azərbaycanda milli şüurun oyanması, milli-demokratik hərəkat və müstəqillik uğrunda mübarizə mövzularının tədqiqi Türkiyə tarixşünaslığında bir sıra dəyərli əsərlərin işıq üzü görməsinə səbəb olmuşdur. Bu əsərlərdə Şimali Azərbaycanda 1905-ci ildən başlayan demokratik hərəkat, eləcə də "Difai", "Müsavat" partiyalarının fəaliyyəti, "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Anadolu əhalisinə yardımı və s. öz əksini tapmışdır.

G.S.Bozkurtun qələmə aldığı "1905-1907 illerde Rusya Müslümanlarının Kimlik Arayışı" kitabında[72] Rusiya müsəlmanlarının keçirdiyi üç böyük qurultaydan bəhs olunmuş, pis və yaxşı yönləriylə bir-birilərini tanimaq fürsəti əldə etmişdilər. "Müsəlman İttifaqı"nı təşkil edərək ilk dəfə siyasət platformasında səslərini ucaltmağa başladılar. Kitabda 1905-1907-ci illərdə Rusiya müsəlmanlarının hüquq bərabərliyi və azadlıq tələbləri, milli kimlik əldə etmək uğrunda mübarizəsi öz əksini tapmışdır. "Azerbaycan Dosyası" kitabının müəllifi T.Sünbül 1905-ci ildə Rusiyada baş verən hadisələrin Azərbaycana təsiri,

---

[70] Günay, N. XX. Yüzyil Başlarinda Rusya'nin Kafkasya'da İzlediği Yayilmaci Politika Karşisinda Osmanli Devleti'nin Tutumu // Kastamonu: I. Milletlerarasi Türkiye-Azerbaycan Münasebetleri Sempozyumu, - 2016. - ss.56-62

[71] Henze, P.B. Kafkaslarda Ateş ve Kılıç: XIX Yüzyılda Kuzey Kafkasyada Dağ Köylülərinin Direnişi / P.B.Henz. – Ankara: ODTÜ Yayınları, - 1985. - 40 s.; Swietochowski, T. Müslüman Cemaatten / T.Swietochowski. - İstanbul: Bağlam Yayınlaı, - 1988. - 296 s.; Luxembourg, N. Rusların Kafkasyayı İşğalinde İngiliz Politikası ve İmam Şamil / - İstanbul: Kayıhan Yayınları, - 1998. – 320 s.; McCarthy, J. Osmanlı Ermeni Nüfusu // J. McCarthy. - Ankara: - 2002. Samuel A. Weems, Ermenistan Terörist "Hristiyan" Ülkenin Sırları / Çev: Hüseyin Adıgüzel, İstanbul: - 2006, - 389 s.; Zinkeisen, J. W.Osmsnlı İmperatorluğu Tarihi / J.W.Zinkeisen. – İstanbul: Yeditepe Yayınevi, - 2011. – 4976 s. Çevierenler: N.Epçeli, E.Özbayoğlu, M.Taş, L.Kayapınar, Ö.Kumrular. 7 Ciltte.

[72] Bozkurt, G.S. 1905-1907 illerdə Rusya Müsülmanlarının Kimlik Arayışı. / G.S.Bozkurt. - İstanbul: Doğu Kütuphanesi, - 2008. - 478 s.

siyasi hərəkatlar, ermənilərin Azərbaycan türklərinə qarşı hücumları, “Difai” partiyasından ətraflı şəkildə bəhs etmişdir[73]. Digər bir türk tarixçisi T.Akyolun “Azerbaycan. Sovyetler ve Ötesi” kitabında[74] Azərbaycanda maarifçilik hərəkatının inkişafı, türkçülük ideyalarının yayılması və eləcə də “üsuli cədid” məktəblərindən bəhs olunmaqdadır. Müəllif türkçülük-marifçilik ideyalarının inkişafinda Hacı Zeynalabidin Tağıyevin xüsusu rolunu diqqətə çatdırmış, cədidçilik fonunda isə Mirzə Ələlbər Sabir və Həsən bəy Zərdabi haqqında ətraflı məlumatları türk oxucularıa çatdırmağı da lazım bilmişdir. Tarixçi İbrahim Yükselin “Azerbaycan’da Fikir Hayatı ve Basın” kitabı əsasən Azərbaycanın ictimai həyatı və mətbuatı ilə bağlıdır.[75]

Azərbaycan mühacirlərdən olan N.Keykurun 1964-cü ildə İstanbulda nəşr edilən “Azerbaycan İstiklal Mücadilesinin Hatıraları” əsərində[76] 1905-1920-ci illərdə Azərbaycanda baş verən hadisələri, o cümlədən erməni vəhşiliyini ətraflı şəkildə qələmə almışdır. “Difai” partiyasının qurulmasında yaxından iştirak etmiş müəllif, partiyanın fəaliyyətini geniş şəkildə türk ziyalılarının diqqətinə çatdırmışdır. Tarixçi C.Çağlanın “Azerbaycanda Milliyetçilik ve Politika”[77] əsəri Azərbaycanda milliyyətçilik ideyalarının iki istiqamətdəki inkişafından bəhs edir. Birincisi erməni-azərbaycanlı rəqabəti və qarşıdurması Azərbaycan burjuaziyası və fəhlə sinfini birlikdə hərəkət etməyə vadar etmişdir. İkincisi, Azərbaycan milliyyətçilyi rus müstəmləkəçiliyinə siyasi bir cavab olaraq inkişaf etmişdi. Müəllifin fikrincə milliyyətçilik milli burjuaziyanın mənafelərinin təmsilçisi olaraq da inkişaf edə bilər, digər sinifləri də öz millətçi siyasətlərini dəstəkləməyə sövq edə bilər. Tarixçi N.Devletin “1905-1917 Rusya Müslüman Kongrelerine

---

[73] Sünbül, T. Azerbaycan Dosyası / T.Sünbül. – Ankara: Kök Sosyal Ve Stratejik Araştırmalar Yayınları, - 1990. - 128 s.
[74] Akyol, T. Azerbaycan Sovyetler ve Ötesi / T.Akyol. – İstanbul: Burak Yayınları, 2015. - 272 s.
[75] Yüksel, İ. Azerbaycan’da Fikir Hayatı ve Basın / İ.Yüksel. – İstanbul: Acar Yayınları, 1989. – 174 s.
[76] Keykurun, N. Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920) / N.Keykurun. - Ankara: İlke Kitabevi Yayınları, - 1998. – 217s.
[77]Çağla, C. Azerbaycanda Milliyetçilik ve Politika / C.Çağla. – İstanbul: Bağlam Yayınçılk, - 2003. - 256 s.

Azerbaycan Aydınlarının Katkıları”[78] əsərində ziyalılarımızın müsəlman konqreslərindəki fəaliyyətindən bəhs olunmaqdadır. Müəllifin digər kitabı olan “Rusiya Türklerinin Milli Mücadele Tarihi”[79] əsərində Rusiya müsəlmanlarının, o cümlədən azərbaycanlıların milli şüurunun oyanışından və mədəni səviyyəsinin inkişafından, eyni zamanda Rusiya türklərinin biri-birlərini kəşf etmələrindən bəhs olunur.

Tariximizin müxtəlif məqamlarının hərtəfli şəkildə tədqiq edərək türk elmi ictimaiyyətinə çatdırılmasında özünə məxsus yeri olan müəlliflərdən biri də Hüseyn Baykaradır. İstanbul vəkillər birliyinin üzvü, əslən Azəbaycan türklərindən olan H.Baykara elmi çalışmalarını demək olar ki, Azərbaycan tarixinə həsr etmişdir. Müəllifin qələmə aldığı “Azerbaycan İstiklal Mücadelesi Tarihi”[80] və “Azerbaycan’da Yenileşme Hareketleri: XIX. Yüzyıl”[81] adlı kitabları, müəllifin geniş tədqiqatının nəticəsidir. Azərbaycanın istiqlaliyyət uğrunda mübarizəsinə həsr olunan kitabında, Əhməd bəy Ağayev tərəfindən qurulan “Difai” partiyası, Rusiya müsəlmanları ittifaqı firqəsi və 1911-ci ildə qurulan “Müsavat” partiyasından geniş şəkildə bəhs olunmaqdadır. Birinci rus inqilabının Azərbaycana təsirindən bəhs edən H.Baykara, eyni zamanda qaçaqlar hərəkatının da rus çarizminə qarşı mübarizənin bir nümunəsi olduğunu qeyd edir.

B. Aslanın ”Kardaş Kömeği (Yardımı) və Bakü Müslüman Cemiyyet-i hayriyesi” kitabında[82] Azərbaycan xalqında milli şüurun oyanması və Bakı müsəlman xeyriyyə cəmiyyətinin fəaliyyəti ön plana çəkilmişdir. “Cəmiyyət”in məqsədyönlü fəaliyyətinin Türkiyədə geniş oxucu kütləsinə çatdırılmasında Azərbaycan xalqının dostu,

---

[78] Devlet, N. 1905-1917 Rusya Müslüman Kongrelerine Azerbaycan Aydınlarının Katkıları // Kafkasya’da İslam Medeniyeti: Milletlerarası Sempozyumu Tebliğleri. - İstanbul: 2000. - s. 183-200

[79] Devlet, N. Rusiya Türklerinin Milli Mücadele Tarihi / N.Devlet. – Ankara: Türk Tarih Kurumu, - 1999. - 347 s.

[80] Baykara, H. Azerbaycan İstiklal Mücadilesi Tarihi / H.Baykara. - İstanbul: Genclik Kitabevi, - 1975. - 331 s.

[81] Baykara, H. Azerbaycan’da Yenileşme Hareketleri XIX. Yüzyıl / H.Baykara. - Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, - 1966. - 200 s.

[82] Aslan, B. ”Kardaş Kömeği(Yardımı)” ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi / B.Aslan. - Ankara:Atatürk Kültür Merkezi Yayınları, - 2000. - 412 s.

müəllif  Betul Aslanın xüsusi rolu danılmazdır. Zəngin mənbə bazasına əsaslanan tədqiqat əsəri qardaş köməyindən bəhs edən çoxsaylı faktları özündə ehtiva edir. Monoqrafiya Azərbaycan tarixşünaslığının zənginləşməsi işinə də öz töhvəsini vermişdir. Müəllif həmçinin Azərbaycanın Rusiya tərəfindən işğalı, çarizmin müstəmləkəçi siyasəti, Türkiyə ilə münasibətlər, Azərbaycan türkləri arasında ilk maarifçilik hərəkatları, 1905-ci il inqilabının Azərbaycana təsiri, Azərbaycanda türk-erməni döyüşləri, "Difai" təşkilatının qurulması və s. məsələlər öz əksini tapmışdır. B.Aslan Azərbaycan tarixi ilə bağlı bir sıra məqalələrində[83] mövzu ilə bağlı bir çox məsələlərə aydınlıq gətirməyə çalışmışdır.

"Azerbaycan Cumhuriyyətinin Kuruluş Mücadelesi(1914-1918) ve Kafkas İslam Ordusu"[84] kitabında müəllif H.Bal Azərbaycan türklərinin Birinci Dünya müharibəsindən əvvəlki mədəni vəziyyəti və bu müharibənin Azərbaycan türklərinə təsirindən ətraflı bəhs eməkdədir. Osmanlı dövlətinin Qafqaz cəbhəsindəki mübarizəsi, rus ordusunun müsəlman xalqa qarşı münasibəti və buna Azərbaycan türklərinin müqaviməti, Azərbaycan türklərinin müstəqillik axtarışları və s. məsələlər də kitabda öz əksini tapmışdır.

Türkiyə tarixşünaslığında tanınmış fikir və dövlət adamı, türkçü, islamcı və mədəniyyətçi, "Müsavat" partiyasına sədrlik etmiş və Azərbaycan Cumhuriyyətinə rəhbərlik etmiş bir şəxs kimi dəyərləndirilən Məhəmməd Əmin Rəsulzadənin ən mühüm əsəri "Kafkasya Türkleri"dir[85] "Tarixə bir baxış" adlı birinci hissədə Qafqazın ruslar tərəfindən işğalına qədər olan tarixi keçmişindən bəhs olunmaqdadır. Rusiya işğalından 1917-ci ilin oktyabr üsyanna qədər keçən vaxtı əhatə edən hissə " Rus istilasında yüz il"  adlanır. Müəllifin özünün də bilavsitə

---

[83] Aslan, B. Azerbaycan / Erzurum: Atatürk Universitesi Türkiyat Araştırmaları Dergisi, - 1996. Sayı 5. – ss.47-75; I. Dünya Savaşi Esnasinda Azerbaycan Türkleri'nin Erzurum Ahalisine Yaptlgi "Kardaş Kömegi (Yardimlari)", // Atatürk Universitesi Türkiyat Araştırmaları Dergisi, - ss.161-178

[84] Bal, H. Azerbaycan Cumhuriyyetinin Kuruluş Mücadelesi (1914-1918) ve Kafkas İslam Ordusu / H.Bal. - İstanbul: İdil Yayınları, - 2010. - 280 s.

[85] Resulzade, M.E. Kafkasya Türkleri / M.E.Resulzade. – İstanbul: Türk Dünyasi Araştırmaları Vakfı - 1993. – 132 s.

şahidi olduğu və yaşadığı bu illər ətraflı bir şəkildə kitabda öz əksini tapmışdır. Əsərin üçüncü hissəsi "Azərbaycan Cumhuriyyəti", dördüncü hissəsi isə "Dağıstan Türkləri"adlanır. Ətraflı və dərin təhlilin nəticəsi olan M.Ə.Rəsulzadənin "Kafkasya Türkleri" əsəri müasir siyasətçilər üçün örnək bir əsərdir. Müəllifin digər əsərləri olan "Azerbaycan Cumhuriyeti: Keyfiyeti-Teşekkülü ve Şimdiki Vaziyeti"[86], "Azerbaycan Problemi" [87] və başqa əsərlərində Azərbaycan tarixinin müxtəlif məsələləri ətraflı şəkildə işıqlandırılmışdır. M.Ə.Rəsulzadənin bu əsərlərində qonşu ölkələrlə, o cümlədən Azərbaycanın Qafqaz və Rusiya siyasəti ilə bağlı əhəmiyyətli tövsiyyələr yer almaqdadır.

Tarixçi S.Şimşirin "Azerbaycanın İstiklal Mücadelesi"[88], "Mehmet Emin Resulzade"[89] əsərlərinə Azərbaycanda milli demoratik hərəkatın gedişini izləmək mümkündür. Bu əsərlərdə "Müsavat" partiyası və Məmməd Əmin Rəsulzadənin siyasi fəaliyyəti haqqında geniş məlumat verilir. Onu da qeyd edək ki, müəllifin birinci kitabı əsasən Azərbaycan Xalq Cumhuriyyətinin elan olunmasından sonrakı dövrü əhatə edir. Müəllifin "Türk Dünyası Tarihi"[90] əsəri Qızıl Orda dövlətinin süqutundan sonra qurulan türk xanlıqlarından başlayaraq günümüzə qədərki Türküstan türklərindən bəhs olunmaqdadır. Müəllif, bölgənin acı tarixi və taleyini ürək ağrısı ilə araşdırmış, soydaşlarımızın çəkdiyi əzablar, o cümlədən azadlıq acısı ortaya qoyulmuşdur.

Türkiyənin daha çox qərbli alimlərin əsərləri ilə tanıdığı Türk Dünyasına, eyni qandan olan bir tədqiqatçının yanaşması prizması və onun nəzərindən  hadisələrə baxmağın daha faydalı olması şəksizdir. Müəllif bu araşdırmalarında Azərbaycan xalqının müstəmləkəçiliyə qarşı apardığı mübarizədən, baş verən üsyanlara da xeyli yer vermişdir.

---

[86] Azerbaycan Cumhuriyeti Keyfiyet-i Teşekkülü ve Şimdiki Vaziyeti / Hazırlayan: İ.M.Yıldırım , S.Çağın , Y.Akpınar. - İstanbul: İrfan Yayıncılık, 1990, 206 s.

[87] Resulzade, M. E. Azerbaycan Problemi / M.E.Resulzade. – Ankara: Azerbaycan Kültür Derneği Yayınları, - 1996. – 42 s.;

[88] Şimşir, S. Azerbaycanın İstiklal Mücadelesi / S.Şimşir. – İstanbul: İQ Kültür Sanat Yayınçılık, - 2013. – 280 s.

[89] Şimşir, S. Mehmet Emin Resulzädenin Türkiye'deki Hayatı, Faahyetleri ve Düşünceleri / S.Şimşir. - Ankara: Türk Kültürünü Araştırma Esntitüsü, - 1995. – 128 s.

[90] Şimşir, S. Türk Dünyası Tarihi / S.Şimşir. – İstanbul: Post Yayınevi, - 2012. - 352 s.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas obyekti XIX-XX əsrin əvvəllində Şimali Azərbaycan tarixi problemlərinin Türkiyə tarixşünaslığında araşdırılmasıdır. Türkiyə tarixçiləri tərfindən Azərbaycan tarixinin müxtəlif sahələrinin tədqiq edilməsi nəyicəsində əldə olunan nəticələr tarixşünaslığımızın müəyyən boş səhifələrinin doldurulmasında mühüm əhəmiyyət kəsb edir. Türkiyə tarixçilərinin Şimali Azərbaycanla bağlı apardığı elmi-tədqiqat işlərinin araşdırılması bu elmi əraşdırmanın əsas predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın tarixi məsələlərinin Türkiyə tarixşünaslığında əks olunması məsələsini yeni nəzəri-konseptual yanaşma işığında araşdırmaqdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı məsələlərin həllinə nail olmağa çalışmışıq:

- İlk olaraq XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın tarixi məsələlərini araşdıran Türkiyə tarixçilərini tanıtmaq;

- Çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalı və xalqın buna müqavimətinin Türkiyə tarixçiləri tərəfindən tədqiqini izləmək;

- Azərbaycan ərazisində "Erməni vilayəti"nin təşkili və Azərbaycana kütləvi köçürmələrin Türkiyə tarixşünaslığında işlənmə dərəcəsini göstərmək;

- İşğalın gedişində və işğaldan sonra çarizmə qarşı xalq üsyanlarının türk tarixçilərinin əsərlərində obyektiv şəkildə işıqlandırılmasını qiymətləndirmək;

- Çarizmin müstəmləkəçilik siyasəti; milli, mənəvi və iqtisadi zülmün Türkiyə tarixşünaslığında necə əks olunmasını aydınlaşdırmaq;

-Azərbaycan əhalisinin Anadoluya məcburi köçü, mühacirlərin Anadoluda yerləşdirilməsi və mühacirlərimizin gələcək həyatının türk tarixçiləri və arxiv sənədləri əsasında öyrənilmə səviyyəsini müəyyənləşdirmək ;

-XİX əsrin sonları və XX əsrin əvvəllərində erməni terror təşkilatlarının Azərbaycandakı pozuculuq fəaliyyətinin Türkiyədə nəşr olunan kitablarda əks olunma dərəcəsini öyrənmək;

-XX əsrin əvvəllərində Azərbaycannda ictimai hərəkat, "Difai", "Müsavat" partiyalarının təşkili və fəaliyyətinin Türkiyə tarixşünaslığında tədqiq səviyyəsini araşdırmaq;

-1905-1907-ci illərdə erməni millətçilərinin Azərbaycandakı milli qırğın siyasətinə türk tarixçilərinin göstərdiyi münasibəti təhlil etmək;

-Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycandakı ictimai-siyasi vəziyyət və erməni quldur dəstələrinin Azərbaycan əhalisini məhv etmək cəhdlərinin, habelə, "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin mühahribədən əziyyət çəkən Anadolu əhalisinə köməyinin Türkiyə tarixşünaslığında obyektiv işıqlandırılmasını aydınlaşdırmaqdır.

**Tədqiqatın metodları.** Dissertasiyanın tədqiqi zamanı tarixi-müqayisəli və elmi-analitik təhlil metodlarından istifadə olunmuşdur. Seçilmiş tarixin müqayisəli təhlil metodu və tarixə obyektiv yanaşma üsulu qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas kimi götürülmüşdür.

XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın tarixi məsələləri Türkiyə tarixşünaslığında probleminin tədqiqi zamanı tarixi sənədlər, mövcud elmi ədəbiyyat araşdırılmış, müqayisəli surətdə təhlil edilmiş və elmi-məntiqi nəticələr çıxarılmışdır. Bu araşdırmalar nəticəsində əldə edilən məntiqi qənaətlər, onların təhlili çar Rusiyasının Azərbaycanla bağlı siyasətinin mahiyyətini daha dolğun anlamağa və izah etməyə imkan vermişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın tarixi məsələlərinin öyrənilməsində türk tarixçilərinin apardığı tədqiqatlar mühüm əhəmiyyət kəsb edir və Azərbaycan tarixşünslığının zənginləşməsinə xidmət edir;

- Türkiyə tarixşünaslığında Şimali Azərbaycanın tarixi məsələlərinin tədqiqində hadisələrə obyektiv yanaşma və həqiqətin ortaya çıxarılması əsas yer tutur;

- Türk tarixçilər XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın tarixi məsələlərinin araşdırılmasında qaynaq və arxiv sənədlərinə üstünlük vermişlər;

- Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması, müstəmləkə zülmünün dözülməzliyi və xalqın müstəmləkə zülmünə qarşı mübarizəsi türk tarixçiləri tərəfindən təsbit olunmuşdur;

- XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycan əhalisinin Anadoluya məcburi köçü, azərbaycanlı mühacirlərin Osmanlı cəmiyyətinə inteqrasiyası Türkiyə tarixşünaslığında yetərincə araşdırılan mövzulardandır;

- "Erməni vilayəti"nin təşkili, "erməni məsələsi"nin mahiyyəti, Erməni terror təşkilatlarının Şimali Azərbaycandakı fəaliyyəti və xalqın gördüyü müdafiə tədbirləri türk tarixçiləri tərəfindən təhlil olunmuş və elmi ictimaiyyətin diqqətinə çatdırılmışdır;

- XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli-demokratik hərəkatın inkişafı, partiya və digər təşkilatların məqsədyönlü fəaliyyəti türk tarixçilərinin tədqiqatlarında mühüm yer tutur

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın tədqiqi zamanı Türkiyə tarixçilərinin əsərləri və əldə edilən arxiv sənədlərinin verdiyi məlumatlar, bizə bu problemi hərtərəfli və dərindən tədqiq etməyə imkan vermişdir. Bu zəngin materialların təhlili bizə aşağıda sadalananları dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

- İlk dəfə olaraq, XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın bəzi məsələlərinin Türkiyə tarixşünaslığında işıqlandırılması problemi ayrıca tədqiqat obyekti kimi seçilmişdir;

- Türkiyə tarixşünaslığı əsasında çarizmin Şimali Azərbaycanla bağlı işğalçı planları, işğalın həyata keçirilməsi və əhalinin müqaviməti məsələsi araşdırılmışdır;

- Türkmənçay müqaviləsindən sonra çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasəti, milli və iqtisadi zülm, Şimali Azərbaycana kütləvi köçürmələr Türkiyə tarixşünaslığı əsasında tədqiq olunmuşdur;

- XIX əsrin 20-40 illərində müstəmləkəçilik əleyhinə xalq hərəkatı və üsyanlar Türkiyə tarixşünaslığı əsasında araşdırılmışdır;

- Tədqiq olunan dövrdə Türkiyə tarixşünaslığı və Osmanlı mənbələri əsasında Şimali Azərbaycandan Anadoluya məcburi köçlər araşdırılmışdır;

- Türkiyə tarixşünaslığı əsasında Şimali Azərbaycandan Osmanlı dövlətinə köç edən bəzi görkəmli şəxslərin fəaliyyəti araşdırılmışdır;

- XIX əsrin son rübü və XX əsrin əvvəllərində Şimali Azərbaycanda erməni millətçilərinin terrorçuluq fəaliyyəti Türkiyə tarixşünaslığı əsasında araşdırılmışdır;

- 1905-1907 və I Dünya müharibəsi illərində erməni daşnaklarının törətdiyi qırğınlar Türkiyə tarixşünaslığı əsasında işıqlandırılmışdır;

- XX əsrin əvvəllərində Azərbaycanda demokratik hərəkat, cəmiyyət və partiyaların təşkili, o cümlədən "Difai" və "Müsavat" partiyalarının fəaliyyəti və "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin müharibədən əziyyət çəkən insanlara yardımı Türkiyə tarixşünaslığı əsasında araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində gətirilən faktiki material və ümumiləşdirmələrdən, bu materiallardan əldə olunmuş elmi nəticələrdən Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin, akademik monoqrafiyaların, Azərbaycan tarixi üzrə dərsliklərin hazırlanmasında dissertasiyanın müddəalarına istinad oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda ölkəmizin ali məktəblərinin tarix fakültələrində mühazirə və Türkiyə tarixşünaslığında Azərbaycan tarixinin öyrənilməsi ilə bağlı xüsusi mühazirə kurslarının oxunması məqsədilə də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun elmi şurasında və problem şurasında təsdiq edilmişdir. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstanda nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda, eləcə də Türkiyə, Rusiyada keçirilən beynəlxalq elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır. Məqalələr əsasən AAK-nın tövsiyyə etdiyi elmi jurnallarda və beynəlxalq konfransların materiallarında çap olunmuşdur. Çap olunmuş məqalələrdə dissertasiya işinin mövzusu tamamilə əhatə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiya işinin ümumi həcmi (ədəbiyyat siyahısı və probellər istisna olmaqla) 521.197 işarədən ibarətdir. Giriş - 45.386, I Fəsil - 118.909, II Fəsil – 65.363, III Fəsil – 65.386, IV Fəsil – 52.297, V Fəsil – 56.953, VI Fəsil – 83.557, Nəticə - 29.858 işarədən ibarətdir.

## II.DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiq olunan mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları öz əksini tapmış, müdafiəyə çıxarılan əsas müddəalar müəyyən edilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin "**Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və Türkmənçay müqaviləsi Türkiyə tarixşünasliğində"** adlanan ilk fəsli dörd paraqrafdan ibarətdir. Bu fəslin ilk paraqrafı **"İşğal ərəfəsində siyasi vəziyyət"**in tədqiqinə həsr olunmuşdur. Bu paraqrafda XVIII əsrin sonu XIX əsrin başlanğıcında Azərbaycannda mərkəzləşmiş dövlətin süquta uğraması, çoxsaylı kiçik dövlət qurumlarının meydana gəlməsi, Azərbaycanın siyasi müstəqilliyinin təhlükə altına düşməsi və nəhayət cənuba doğru irəliləməyi planlaşdıran çar Rusiyasının əlinə əvəzolunmaz bir fürsətin düşməsindən bəhs olunmaqdadır. Tədqiq olunan dövrdə Azərbaycanda mövcud olan xanlıqların bir araya gələrək güclü bir dövlət halında birləşməməsi türk tarixçilərinin də diqqətini çəkmiş və işğalın əsas səbəblərindən birinin də məhz ölkədə feodal pərakəndəliyin mövcud olmasından qaynaqlandığını irəli sürmüşlər.

Bu paraqrafın araşdırılmasında M.Sarayın "Yeni Türk Cumhuriyetleri Tarihi"[91] adlı əsəri mühüm əhəmiyyət kəsb edir. Müəllif XVI-

---

[91] Saray, M. Yeni Türk...,

II əsrin sonu- XIX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş xanlıqlar sistemindən, Qacarların ölkəni birlədirmək uğrunda apardığı mübarizədən, Osmanlıların bölgədəki maraqlarından, habelə çar Rusiyasının işğalçılıq siyasətindən geniş şəkildə bəhs etmiş və bu barədə ilkin qaynaqların verdiyi məlumatları da türk oxucusunun diqqətinə çatdırmışdır.

İşğal ərəfəsindəki Azərbaycandakı siyasi pərakəndəlikdən bəhs edən mühacir tarixçi N.Keykurun da işğal ərəfəsində Azərbaycan xanlıqlarının öz aralarında razılığa gələ bilməməsinin ağır nəticələrə səbəb olduğunu, onların tək-tək rus imperializmi tərəfindən ələ keçirilməsinə gətirib çıxardığını qeyd etmişdir.[92] C.Yücel qeyd edir ki, *"1801-ci ildə ruslar "himayə" bəhanəsi ilə Cənubi Qafqaza-Gürcüstana soxulduqları zaman, Azərbaycan xanlıqlar dörünü yaşayırdı".*[93] H.Oktayın fikrincə, Azərbaycanın xanlıqlara parçalanması və bu xanlıqların öz aralarında mübarizə aparmaları Qafqazdakı işğal planlarını həyata keçirməyə hazırlaşan ruslar üçün əlverişli bir fürsət olmuşdur. Fikrini daha da inkişaf etdirən müəllif yazır: "*Xanlıqlar modern dövlət qurma müddətinin şərtlərini lazımınca dəyərləndirməmiş, şəhər dövlətləri kimi çıxılmaz dalana dirənmişlərdi"*.[94] Azərbaycanın işğal ərəfəsində çoxsaylı xanlıqlara və daha kiçik dövlət qurumlarına parçalanmasının doğurduğu ağır nəticələrindən bəhs edən M.Yıldız yazır: *"Xanlıqlar arasındakı ziddiyyətlərdən doğan bu fəlakətin acı nəticələrini vaxt keçdikcə anlayan Azərbaycan türkləri öz yurdlarını, tarixin, taleyin ağrılı oyunlarından, rusların zülmündən qorumaq və ondan xilas olmaq üçün qəhramancasına mübarizə aparsalar da baş vermiş fəlakətdən qurtula bilmədilər.*"[95]

---

[92] Keykurun, N. Göst. əsəri, s.5
[93] Yücel, C. Dış Türkler / C.Yücel. - İstanbul: Hun Yayınları, 1976. - 174 s. s.77-78
[94] Oktay, H. Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Ağustos-Eylül 1811) //. Vakanüvis - Uluslararası Tarih Araştırmaları Dergisi, - 2017. S.2: - s.379-392.
[95] Yıldız, M. Göst. əsəri, s.79

Bu paraqrafı əhatə edən bir çox məsələlələr və əldə olunmuş nəticələr müəllifin çap olunmuş məqaləsində öz əksini tapmışdır.[96]

Birinci fəslin ikinci paraqrafı **"İşğalın başlanması. Gəncə və İrəvan xanlıqlarının Rusiya imperiyasına qarşı müqaviməti"** adlanır. Bu paraqrafın ana xətti bölgədəki siysi vəziyyətdən istifadə edən Rusiya imperiyasının nəyin bahasına olursa olsun Azərbaycanın şimal hissəsini işğal edərək öz sərhədlərini Araz çayına çəkmək haqqında planını reallaşdırması təşkil edir. 1803-cü ildə Car-Balakən camaatlarının, 1804-cü ildə isə Gəncə və İrəvan xanlıqlarının göstərdiyi müqavimət Rusiya işğallarını bir müddət ləngitsə də onun qarşısını ala bilmədi. Eyni zamanda türk tarixçiləri işğal ərəfəsində Azərbaycanın beynəlxalq aləmdə tək qaldığını və qonşu dölətlərdən, o cümlədən Osmanlı dövlətindən elə bir yardım almadıqlarını qeyd etmişlər. Türkiyəli müəlliflərin tədqiq olunan problemə həsr etdikləri əsərlərdə, işğal ərəfəsində Şimali Azərbaycan və onun ətrafında baş verən hadisələrin tam mahiyyəti ətraflı şəkildə öz əksini tapmışdır.

M.Aydın Rusiya, Osmanlı, Qaçar xanədanı arasında sıxışıb qalan Cənubi Qafqazın güç mübarizələrinin mərkəzi olduğunu göstərmiş və bu üç dövlətlə müqayisədə çox zəif xanlıqların meydana gəlməsinin bölgədə hökmranlıq uğrunda gedən mübarizənin ağırlaşmasına səbəb olduğunu qeyd etmişdir.[97] Bölgədə mövcud olan vəziyyəti beynəlxalq dəyərlər sistemindən təhlil edən H.Baykaranın fikrincə XIX əsrin əvvəlində çar Rusiyası tərəfindən Azərbaycanın istilasında əsas məqsədi, bu ölkəni Türkiyə və İrana qarşı hərbi baza olaraq istifadə etməklə bağlı idisə, sonralar bu işğal imam Şamilin Qafqaz dağlarındakı azadlıq mübarizəsini boğmaq və bu mübarizənin yönünü dəyişmək məqsədindən irəli gəlirdi. Bu səbəbdən də "*bu qədim ölkə uzun illər hərbi rejim tərəfindən idarə olunmuş və hər şey rus komandirlərinin insaf və ədalətindən asılı olmuşdur"*.[98] A.Çay da Rusiya işğalı qarşısında Azərbaycan xanlarının tamamilə tək olduğunu, Osmanlı imperiyasının

---

[96]Umudlu V.U. Rusiya işğalı ərəfəsində Şimali Azərbaycanda siyasi vəziyyət Türkiyə tarixşünasliğında // Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Tarix, İnsan və Cəmiyyət" elmi-nəzəri və elmi metodik jurnalı, - 2021. №2 (32), - s.74-81

[97]Aydın, M. Göst. əsəri

[98] Baykara, H. Azerbaycanda Yeni..., s.48

regiondakı hadisələrə müdaxiləsinin mümkün olmadığını, eyni zamanda İranda hökm sürən Qacarlar sülaləsinin də Rusiyanın işğalı qarşısında hər hansı bir uğur qazanmadığını qeyd edir.[99]

XIX əsrin əvvəllərində baş verən işğal hadisələri və əldə olunan nəticələri özündə ehtiva edən məqalə elmi ictimaiyyətin diqqətinə çatdırılmışdır.[100]

Birinci fəslin üçüncü paraqrafı **"İşğalın birinci mərhələsinin başa çatması. Gülüstan müqaviləsi"** adlanır. Bu paraqraf 1813-cü ilədək olan dövrü əhatə edir. Qısa zaman ərzində Rusiya imperiyası müxtəlif üsul və vasitələrdən istifadə edərək Qarabağ, Şəki və Şamaxı xanlıqlarını da ələ keçirməyə nail oldular. Türkiyə tarixçilərinin qeyd etdiyi kimi bu açıq-aydın bir istila, özgə ərazilərini mənimsəmək olmuşdur. Hər üç xanlıqda rus əskərləri yerləşdirilmiş, xanların fəaliyyət dairəsi həddindən artıq daralmışdı. Qafqazdakı Rusiya qoşunlarının baş komandanı general Sisyanovun və Qarabağ xanı İbrahimxəlil xanın öldürülmələri işğal məsələlərini bir az ləngitsə də qarşısını ala bilmədi.

1806-cı ilin payızında yeni yürüşlər başladı Dərbənd və Quba xanlıqlarının işğalından az sonra rus qoşunlarının Bakı xanlığına hücumu başlandı və 1806-cı ilin sentyabrında Bakı qalası mühasirəyə alındı.[101] A.N.Kuratın qeyd etdiyi kimi *"1810-cu ildə Qafqazın böyük bir hissəsi ruslar tərəfindən ələ keçirildi. Rusiyanın sərhədləri Şərqi Anadoluya qədər uzanmış oldu".*[102] Lənkəran qalasının süqutundan sonra ingilislərin vasitəçiliyi ilə Qacar İranı ilə Rusiya arasında Gülüstan müqaviləsi imzalandı. Müqviləsinin ağır şərtləri və törətdiyi fəsadlar türk tarixçilərinin fikirləri paraqrafda öz əksini tapmışdır.

---

[99]Çay, A. Azerbaycan ve Türkler // Azərbaycan Birinci Uluslararası Sempozyumu Bildirileri. – Ankara:- 2002. - ss.101-120

[100]Umudlu V.U. Cavad xanın Rusiya işğalına qarşı mübarizəsi Türkiyə tarixşünaslığında (XIX əsrin əvvəli) // Bakı Universitetinin XƏBƏRLƏRI. Humanitar Elmlər Seriyası, - 2021. №1, - s.103-109.; Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının başlanması Türkiyə tarixşünalığında // Akademik Tarih ve Düşünce Dergisi. Yıl - 2019. Cilt 6, Sayı 5, - ss.257-273.

[101] DABOA, Hatti Humayun fonu (HAT) , sn.963/41245

[102] Kurat, A.N. Rusya tarihi başlangıçtan 1917'ye kadar / A.N. Kurat. - Ankara: Türk Tarih Kurumu, - 2010. – 537 s.

İşğalın ilk mərhələsinin başa çatması və xalqın müstəmləkəçilik əleyhinə mübarizəsinin türk tarixşünaslığında inikasaı çap ounmuş məqalədə öz əksini tapmışdır.[103]

**"Naxçıvan və İrəvan xanlıqları ərazisində "Erməni vilayəti"nin təşkili. Türkmənçay müqaviləsi"** adlı son paraqrafda işğalın başa çatması və Azərbaycanın iki dövlət arasında bölünməsi, "Erməni vilayəti"nin təşkili Türkiyə tarixşünaslığı əsasında işıqlandırılmışdır. Keçmiş Şəki xanı Səlim xanın mühacirəti və Osmanlı sarayı ilə yazışmaları, habelə Şəki, Şamaxı və Qarabağ xanlıqlarının ləğvi məsələsi də bu paraqrafda öz əksini tapmışdır. Qarabağ xanlığının ləğvindən bəhs edən Z.Makas, bunun 1822-ci ildə çar tərəfindən çıxarılan bir fərmanla həyata keçirildiyini qeyd edir.[104]

Qeyd edək ki, İkinci Rusiya-Qacar müharibəsinin başlanmasının əsas səbəblərindən biri elə İrəvan xanlığının işğalı ilə bağlı idı. Beləki, çar I Nikolay Tiflisə gen.Yermolovun əmrinə bir piyada tüməni və 6 kazak süvari alayı göndərərək İrəvan xanlığını işğal etməsini əmr etmişdi.[105] Qacarlar İranı ilə imzalanan Türkmənçay müqaviləsi Azərbaycanın müstəqilliyinə son qoyaraq, onun ikiyə bölünməsini rəsmiləşdirmişdir. İrəvan və Naxçıvan xanlıqları əsasında "Erməni vilayəti" təşkil olunmuş və çoxsaylı erməni ailəsi Azərbaycan torpaqlarına köçürülmüşdür. Türkiyəli müəlliflərin qeyd etdiyi kimi, Türkmənçay və Ədirnə müqavilələri nəticəsində Osmanlı və Qacarların Çənubi Qafqazla əlaqəsi kəsilmiş, Azərbaycanın şimal hissəsi Rusiya hegemonluğu altına düşmüşdür.

Bu paraqrafda bəhs olunan problemlər müəllifin nəşr olunan məqaləsində öz əksini tapmışdır.[106]

---

[103] Umudlu V.U. Gülistan Antlaşması Arefesinde Azerbaycan Halkının Sömürgeçiliğe Karşı Mücadelesi // YENI TÜRKİYE, Temmuz Aralık. Ankara: - 2015, Yıl 21, Cilt V, sayı 75, - s.278-285

[104] Makas, Z.A. Azerbaycanın Tarihi ve ..., s.12

[105] Bİ M. Osmanlı Çağında…, s.347

[106] Umudlu V.U. İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalı Türkiyə tarixşünaslığında // Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix, İnsan və Cəmiyyət . Elmi – nəzəri və elmi – metodik jurnalı – 2021. №1 (31),. - s.100-108

Dissertasiyanın ikinci fəsli **“Çarizmin Şimali Azərbaycanda müstəmləkə rejimi türk tarixçilərinin əsərlərində”** adlanır. Xanlıqlarda hakimiyyəti ələ kecirən rus hərbciləri yerli əhaliyə, xüsusən də ruhani və bəylərə divan tutmağa başladılar. Xeyli adam həbs edildi, onların əmlakları isə musadirə olundu. Yeni ərazilərlə yanaşə ruslar xeyli var-dovlət ələ kecirdilər. Fasilələrlə otuz ilə yaxın davam edən müharibələr, kutləvi terror və çarizmin amansız müstəmləkə rejimi əhalinin kutləvi şəkildə azalmasına səbəb oldu. Bu fəslin **“İşğaldan sonra Şimali Azərbaycan ərazisinə kütləvi köçürmələr”** adlı ilk paraqrafında bir çox türk müəlliflər çarizmin müstəmləkəçi siyasətinin tərkib hissəsi olan köçürmə siyasətindən də ətraflı bəhs etmiş və bunu XIX əsrin 30-cu illərində baş verən üsyanların əsas səbəblərindən biri kimi dəyərləndirmişlər. Qeyd edək ki, Rusiya tərəfindən salınmasına cəhd edilən hərbi-məskənlər və alman koloniyaları, eləcə də ermənilərin bu torpaqlara kütləvi şəkildə köçürülməsi, Azərbaycanın bir xristian bölgəsinə çevrilməsini nəzərdə tutan planın tərkib hissəsi idi.

“Osmanlı Devletinde Ermeni Nüfusu” adlı əsərdə göstərilir ki, *“1829-cu ildə rus ordusu Ərzurumdan çəkilərkən təxminən 40.000 erməni, 1878-1890-ci illər arasında isə təxminən 120.000 erməni Cənubi Qafqaza köç etmişdir”.*[107] Çar Rusiyasının Qarabağda ermənilərin sayını artırmaqla bu bölgənin də gələcəkdə ermənilərin əlinə keçməsinə və bununla da onların yeni vətən qazanmasına köklü zəmin hazırlaması heç şübhəsizdir.

İşğaldan sonra xristian erməni, rus və alman əhalinin Şimali Azərbaycan ərazisinə kütləvi şəkildə köçürülməsi və çarizmin həyata keçirdiyi müstəmləkəçi siyasət M.Saray, H.Baykara, B.Aslan, M.Ə.Rəsulzadə, K.Beydilli, C.Azer, A.Saydam və digər türk və mühacir tarixçilərin əsərlərində geniş şəkildə təhlil olunmaqdadır. Bu baxımdan həmin müəlliflərin Ankara, İstanbul və Türkiyənin müxtəlif şəhərlərində nəşr olunmuş kitablarının Azərbaycanda da geniş əhali kütləsinə tanıdılması mühüm əhəmiyyət kəsb edir.

---

[107]Osmanlı Devleti’nde Ermeni Nüfusu // Türrk Tarih Kurumu Başkanlığı, https://www.yumpu.com/en/document/read/52799139/osmanli-devletinde-ermeni-nufusu

Azərbaycan torpaqlarına ermənilərin kütləvi şəkildə köçürülməsi ilə bağlı türk tarixçilərinin araşdırmalarai və əldə etdiyi nəticələr müəllifin çap olunan məqaləsində yer almaqdadır.[108]

İkinci fəslin ikinci paraqrafı **"Çarizmin inzibati amirlik sistemi və müstəmləkəçilik siyasəti"** adlanır. Rusiya işğalı və Azərbaycanın ikiyə bölünməsi artıq acı bir həqiqət idi. Əvvəlki üsul-idarə ləğv edilmiş, əvəzində Rusiya imperiyasının müstəmləkə zülmünü özündə ehtiva edən hərbi komendantlıq sistemi təşkil olunmuşdu. İqtisadi və milli zülm insanlar üçün ağır buxova çevrilmiş, narazılıqlar kütləvi hal almışdı. Çar hakim dairələri öz mənfur siyasətini silah güçünə və ağır işgəncələrlə həyata keçirməkdə idi. H.Baykaranın fikrincə, *"XIX əsrin ilk yarısı çarizm rejiminin Azərbaycanda yerləşməsi dövrü olmuşdur. Bu dövr müstəmləkəçi rus imperializmi ilə işğala məruz qalan ölkə əhalisi arasında dava-dalaşlı və təlatümlü olmuşdur".*[109] A.Saydamın təsbitinə görə Rusiya hüquqi cəhətdən özünə aid etdiyi Qafqazı praktik cəhətdən də ələ keçirə bilmək üçün bütün insani hisslərdən uzaq olaraq hakimiyyətini qan və atəşlə həyata keçirməyə təşəbbüs etmişdi.[110]. Lakin, yerli hakimlər hüquqi cəhətdən Qafqazın sahibi olan Rusiyanın ağalığını qəbul etmək istəməirdilər. Bu zaman ruslar qəddar hərəkətlərlə xalqı bezdirmək, bölüb parçalamaq üçün yeni tədbirlərə əl atırdılar.[111]

H.Baykara qeyd edir ki, Azərbayanın işğalından sonra qurulan komendant üsul-idarəsinin kəndliyə qarşı etdiyi zülm Azərbaycan kəndlisinin saysız çıxış və üsyanlarına səbəb olmuşdur. Komendantlar, onlara rüşvət almaqda vasitəçilik edən bəylərlə birlikdə bu zülmü həyata keçirmişlər.[112] M.Saray yazır: *"Ruslar ağır vergilər toplamaqla xalqı əzməyə başlamış və bunula da kifayətlənməyən rus hakim dai-*

---

[108]Umudlu, V.U. Türkiyə tarixçiləri ermənilərin Şimali Azərbaycan torpaqlarina kütləvi köçü barədə (1828-1829-cu illər) // Sivilizasiya. Elmi-nəzəri jurnal, Avrasiya Universiteti – 2021. Cild 10, №3 (48), - ss.69-75
[109] Baykara, H., Azerbaycanda Yeni..., s.50
[110] Saydam, A. Kırım ve Kafkas..., s.46
[111] Saydam, A. Rusyanın Kafkasyayı işgali // Ondokuzmayıs Universitesi Egitim fakültesi dergisi, - 1990. - ss.239-257
[112] Baykara H. Azerbaycan İstik..., s.34

*rəlri minlərcə rus kəndlisini Azərbaycana gətirərək məhsuldar Azərbaycan torpaqlarında yerləşdirmişdilər”.*[113] Həqiqətən Azərbaycan türklərinin iqtisadi dayaqlarını məhv etmə fəaliyyəti işğal ilə birlikdə başlamışdı. Bu sahədə həyata keçirilən “Təhkimli layihəsi” kəndliləri qula çevirmək məqsədi daşıyırdı.[114]

Paraqrafda bəhs olunan problemlərin tədqiqi bağlı aparılan təhlillər müəllifin nəşr olunmuş elmi əsərində öz əksini tapmışdır.[115]

İkinci fəslin üçüncü paraqrafı **“Xalqın müstəmləkə zülmünə qarşı mübarizəsi”** adlanır. Bu paraqrafda Şimali Azərbaycanın çar Rusiyası tərəfindən hərbi yolla işğalı və Türkmənçay müqaviləsinin imzalanması xalqın ümumi narazılığına və müstəmləkəçilik əleyhinə alovlanan mübarizədən bəhs olunur. Məlumdur ki, siyasi, iqtisadi və mədəni sahələrdə həyata keçirilən müstəmləkəçi siyasət hələ işğalın gedişində XIX əsrin 20-cu illərində Şimali Azərbaycanda çarizmə qarşı güclü üsyanlara səbəb olmuşdu. Bu üsyanları XIX əsrin 30-cu illərində daha güclü üsyanlar əvəz etdi. Türk tarixçiləri H.Baykara, M.Bi, Ş.Erel, M.Saray və digərlərinin əsərlərində XIX əsrin 30-cu illərində baş vermiş xalq hərəkatından, o cümlədən Car-Balakən üsyanından da ətraflı şəkildə bəhs olunmuşdur.

Bəhs olunan dövrdə baş verən xalq hərəkatını qələmə alan A.Caferoğlu yazır ki, əsrlərcə azad yaşayan Azərbaycan türkləri üçün bu yeni dövr çox fəlakətli olmuşdur. Çar Rusiyasının ardı-arası kəsilməyən zülmü yerli türklərin həyatını kökündən zəhərləyəcək qədər ağır olmuşdur. Belə ki, *“xanlıqların işğalı ilə münəvvər təbəqənin mühüm bir qismi sürgün edilmiş, əhalisi mühacirət etməyə məcbur edilmiş, bir çoxları da törədilən intiriqaların qurbanı olmuşdur”.*[116] Çarizmin ağır müstəmləkə zülmünü və xalqın işğalçılara qarşı ciddi müqavimətini qabarıq şəkildə türk oxucularının diqqətinə çatdıran H. Baykara yazır: *“Qafqazlılar çar üsul-idarəsinə asanlıqla boyun əymədilər. 1830-cu*

---

[113] Saray M. Yeni Türk Cum..., s.32.
[114] Saydam,A. Kırım ve Kafkas..., s,73.
[115] Umudlu V.U. Türkmənçay müqaviləsindən sonra çarizmin Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti Türkiyə tarixşünaslığında // Bakı Universitetinin XƏBƏRLƏRİ. Humanitar Elmlər Seriyası, - 2016. Sayı 3,. - ss.99-106
[116] Caferoğlu, A. Azerbayc..., s..22.

*ildə Car-Balakəndə, 1831-ci ildə Lənkəranda, sonra isə Quba, Şəki və Şuşa bölgələrində üsyanlar baş verdi".*[117]

Türk tarixçilərindən Ö.G.İşyar, H.Baykara, N.İpek, M.Saray, A.Saydam, A.Çeçen, Ş.Erel, N.Sarıahmetoğlu və digərlərinin əsərlərində çarizmin həyata keçirdiyi müstəmləkəçi siyasət kəskin tənqid olunmuş, baş verən üsyanlar və qaçaq hərəkatı obyektiv şəkildə öz əksini tapmışdır. Müridizm ideyalarının xalq hərəkatına təsirindən bəhs edən türk müəlliflər üsyanların baş verməsində din amilini önə çəkmiş, xalqın birliyindən bəhs etmişlər. Xalqın Osmanlı türkləri ilə dini və mənəvi yaxınlığı da müstəmləkəçilərə qarşı aparılan mübarizəyə xüsusi bir istiqamət vermişdir. Həmçinin Türkiyəli müəlliflər müstəmləkə rejiminə qarşı mübarizədə Azərbaycan və Dağıstan xalqlarının birliyindən bəhs etmiş, Azərbaycanın apardığı haqlı mübarizəyə ümumqafqaz prizmasından yanaşaraq hadisələri obyektiv şəkildə təhlil etməyə çalışmışlar.

Bəhs olunan problemi özündə əks etdirən məqalədə üsyanların, xüsusilə Car-Balakən üsyanının səbəbləri, gedişi və nəticələri haqqında məlumat verilməkdədir.[118]

Dissertasiya işinin üçüncü fəsli **"Şimali Azərbaycan əhalisinin Osmanlı torpaqlarına məcburi köçü Türkiyə tarixşünaslığında"** adlanır. Bu fəsildə işğaldan sonra Şimali Azərbaycan ərazisinə kütləvi köçürmələr, çarizmin inzibati-amirlik sistemi və müstəmləkəçilik siyasəti, habelə xalqın müstəmləkə zülmünə qarşı mübarizəsinin Türkiyə tarixşünaslığında öyrənilməsi məsələsi öz əksini tapmışdır. Rusiyanın apardığı müstəmləkəçi siyasətin bilavasitə nəticəsi olan bu köçlərin Türkiyə tarixçiləri tərəfindən ətraflı araşdırılması tariximizin öyrənilməmiş səhifələrinə işıq salmışdır.

Bu fəslin birinci paraqrafı **"İşğaldan sonra əhalinin Osmanlı torpaqlarına məcburi köçü"** adlanır. Qafqazın, o cümlədən Şimali

---

[117] Baykara, H. Azerbaycan İstiklal..., s.30-36.

[118] Umudlu, V.U. National movement in 1830 in North Azerbaijan in Turkish historiography // Ғылыми-Педагогикалық Журнал Оңтүстік Казақстан Мемлекеттік. Педагогикалық Институтының Хабаршысы // Вестник Южно-Казахстанского Государственного Педагогического Института. Научно Педагогический Журнал, Шымкент. – 2017. (ISSN 2415-8186), № 4 (14) - s.54-59

Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə başlayan yerli əhalinin Anadoluya məcburi köçü Türkiyə tarixşünaslığının da ən aktual mövzularından biridir. XIX yüzilliyin əvvəllərinə təsadüf edən bu proseslər nəticəsində işğalla barışmaq istəməyən əhali ata-baba yurdlarını tərk edərək ilk oncə işğal olunmayan xanlıqların ərazilərinə, daha sonra isə Qacar İranı və Osmanlı Türkiyəsinə köç etmək məcburiyyətində qaldılar.

Türk tarixçilərindən A.Saydam, N.İpək, K.Karpat, B.Habichoğlu, H.Bice, C.Barlas, K.Kaflı, İ.Berkok və adını çəkmədiyimiz bir çox tarixçilər öz əsərlərində Qafqaz xalqlarının, o cümlədən Şimali Azərbaycanın əhalisinin miqrasiya problemlərini tədqiq etməyə çalışmışlar. Bu əsərlərdə köçlərin bütün tərəfləri təhlil edilərək oxuculara təqdim olunmaqdadır. Mövzusunun mənbə bazası çox zəngindir. DABOA -nın fondlarında köçlərlə bağlı cox saylı sənədlər yer almaqdadır. Əski əlifbanı oxumaqda çətinlik çəkən və Osmanlı Axivlərindən uzaq qalan tədqiqatçılar üçün Osmanlı arxiv sənədləri əsasında hazırlanmış olan ikicildlik “Kafkas Göçleri” kitabları mühüm əhəmiyyət kəsb edir.

Köçlərin səbəblərindən bəhs edən türk tarixçiləri bunun zorakı vasitələrlə törədildiyi qənaətindədirlər. Belə ki, insanlar Anadoluya köç etmək məcburiyyətində qalmış və köç hərəkatı uzun müddət davam etmişdir. Yüz minlərlə mühacir həm yol boyu, həm də müvəqqəti yaşayış yerlərində çox böyük çətinliklərlə üzləşdi. Bu paraqrafda Naxçıvanlı Şirin bəy və Ərəş qəzasından olan məcburi köçkünlərlə bağlı cədvəl də öz əksini tapmışdır.

İddiaçının çap olunmuş elmi əsərlərində, yerli əhalinin məcburi köçü ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilmişdir.[119]

Üçüncü fəslin ikinci paraqrafı **“Anadoluya köç edən görkəmli şəxsiyyətlərimiz”** adlanır. Bir çox müəlliflər mühacirlərin sonrakı hə-

---

[119] Umudlu, V.U. Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalından sonra yerli əhalinin Türkiyəyə köçü tarixindən // JOURNAL of QAFQAZ UNİVERSİTY, History, Law And Political Sciences Number 1, Volume 3, 2015. - s.15-22; Умудлу В.У. Причины вынужденной миграции из Северного Азербайджана в Анатолию в трудах турецких историков // Издательство: Журнал "Вопросы истории", ISSN: 0042–8779. Ном: 5, год: 2020, - стр.273-278

yat və fəaliyyəti ilə bağlı da araşdırmalar aparmış, onların Osmanlı cəmiyyətində oynadıqları rol və tuttduqları mövqeyi işıqlandırmağa çalışmışlar. Əsas məqsədmizdən birinin də köçə məruz qalan həmvətənlərimizin sonrakı taleyinə aydınlıq gətirmək və onların yeni cəmiyyətə uyğunlaşmasını öyrənmək olduğundan bu əsərlər bizim üçün mühüm əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, keçmiş mühacir və onların övladları arasında Türkiyənin gələcək həyanda mühüm rol oynayacaq görkəmli şəxsiyyətlər yetişmişdir. Turkiyənin müxtəlif bölgələrinə köç edən soydaşlarımız tezliklə yerli əhali ilə qaynayıb-qarışmış, Osmanlı dövlətinin siyasi-iqtisadi və ictimai həyatında mühüm rol oynamışlar. Nümunə olaraq bir neçə mühacirin Türkiyədəki həyat və fəaliyyətindən bəhs etmək yerinə düşər.

C.Barlasın "Hicretteki Dağıstan" əsəri tamamilə Türkiyəyə köç edən Dağıstan və Azərbaycan mühacirlərinə həsr olunmuşdur.[120] Bu kitab mühacirlərimizin Anadoludakı həyat tərzini izləmək baxımından çox dəyərlidir. Əsərdə İsmayıl Şirvani, Mehmed Zahid Kotku, Mehmed Rüşdi Şirvanizadə kimi görkəmli şəxsiyyətlərimizin Osmanlı cəmiyyətinə verdiyi töhvələr və nümunə olacaq fəaliyyətləri öz əksini tapmışdır. K.Kaflı etiraf etdiyi kimi, *"Qafqazda Moskva zülmünün artması nəticəsində Dağıstanın Urma kəndindən ailəsi və digər dağıstanlılarla birlikdə Yalovaya yerləşmək məcburiyyətində qalmışlar"*.[121] Ş. Erel də Qafqazın bolşeviklər tərəfindən işğalından sonra Dağıstanın Suğrat kəndindən Türkiyəyə köç etmişdir[122].

İsmayıl Şirvani Osmanlı dövlətində mühüm vəzifələr tutmuş görkəmli övladlar yetişdirmişdir. İsmayıl Şirvaninin ailə üzvləri, xüsusilə Osmanlı dövlətində yüksək məqama yüksələn oğlu Mehmed Rüşdi paşa haqqında dəyərli məlumatlar Osmanlı və İslam ensiklopediyalarında, "Müfəssəl Osmanlı tarixi"ndə, habelə bir çox tarixçilərin əsərlərində geniş yer almaqdadır.

---

[120]Barlas, C. Hicretteki Dağ...,
[121]Kaflı, K. Türkiyeye Göç...,
[122]Erel, Ş. Dağıstan ve Dağ...,

Paraqrafın yekunlarını özündə əks etdirən bir sıra məqalələr elmi jurnallarda dərc olunmuşdur.[123]

Dissertasiyanın **“XIX əsrin sonu-XX əsrin başlanğıcında erməni terror təşkilatlarının Şimali Azərbaycandakı fəaliyyəti türk tarixçilərinin tədqiqalarında”** adlanan dördüncü fəsli bütünlüklə XIX əsrin son rübü - XX əsrin əvvəllərində erməni terror təşkilatlarinin Şimali Azərbaycandakı fəaliyyətinin türk tarixçiləriinin tədqiqatlarinda işıqlandırılma səviyyəsinin araşdırılmasına həsr olunmuşdur. Burada “Armenakan”, “Hnçak”, “Daşnaksütyun” kimi terrorçu təşkilatların təşkili, erməni quldur dəstələrinin sərhəd kəndlərindəki vəhşilikləri, habelə 1905-1906-cı illərdə erməni millətçilərinin Şimali Azərbaycanda törətdiyi qırğınların Türkiyə tarixşünaslığında inikası məsələsi öz əksini tapmışdır.

Dördüncü fəslinin ilk paraqrafı **“XIX əsrin son rübündə erməni terror təşkilatlarının fəaliyyəti”** adlanır. Bu paraqrafda Rusiya, İngiltərə, Fransa kimi güclü Avropa dövlətlərinin maraqlarına uyğun olaraq təsis olunan erməni terror təşkilatların Osmanlı dövləti ilə yanaşı, Azərbaycanda da öz çirkin niyyətlərini həyata keçirməyə çalışmışlarından bəhs olunur. Türk tarixçilərindən E.Uras, C.Taşkıran, S.Münir, Ö.G.İşyar, S.Laçiner, K.Karabekir, Y.Halacoğlu M.Saray və başqa müəlliflər nəşr etdirdikləri əsərlərdə hadisələri obyektiv şəkildə işıqlandırmağa nail olmuşlar.

Bir sıra Azərbaycan, rus və Avropa müəllifləri də problemlə bağlı Türkiyədə nəşr etdirdikləri monoqrafiya və məqalələrində hadisələrin gedişinə işıq tutmağa çalışmışlar. DABOA-nin sənədləri əsasında tərtib edilmiş kitablar da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Erməni terror təşkilatlarının ilki olan “Armenakan” 1885-ci ildə M.Portağalyanın rəhbərliyi ilə Vanda qurulmuşdur. Digər bir erməni terror təşkilatı olan “Hınçak” 1887-ci ildə İsveçrədə “Armenia” qəzetinin yazarı A.Nazarbekyan tərəfindən təsis olunmuşdur. Belə təşkilat-

---

[123] Umudlu, V.U. XIX. Yüzyılda Kuzey Azerbaycandan Osmanlı İstanbulu’na Göçler // Osmanli İstanbulu V, Istanbul: 29 Mayıs Üniversitesi Yayınları, - 2017. - s.287-299

lardan biri 1890-cı ildə Tiflisdə təsisi olunan "Daşnaksütyun" partiyası oımuşdur. S.Laçınerin yazdığına görə, "*bu təşkilatın qurulması vəziyyətin daha qanlı və qarışıq bir hal almasın gətirib çıxardı".*[124] 1892-ci ildə Çenevrədə keçirilən ilk rəsmi iclaslarında qəbul edilən proqramda təşkilatıın son hədəfi olan "Böyük Ermənistan" planı öz əksini tapdı.[125] XIX əsrin 90-cı illərində erməni quldur dəstələri tez-tez sərhədləri adlayaraq yerli türk və kürd əhaliyə qarşı qırğınlar törədir, "Hınçak" və "Daşnaksütyun"un qiyam və üsyanlarda kütləvi şəkildə iştirak edirdilər. Bu zaman sərhədboyunda yaşayan azərbaycanlı əhali quldurların əsas hədəfinə çevrilirdilər. H.Baykara, "Daşnaksütyun" partiyasının meydana çıxmasına qədər *"azərbaycanlı, erməni və gürcülərin dostluq şəraitində yaşadıqlarını, heç bir düşmənçiliyin olmadığını, bütün qanlı hadisələrin törənməsinin səbəbinin daşnakların terrorçuluq fəliyyətində olduğunu"* qeyd edir.[126]

Nəşr olunmuş elmi əsərlərdə erməni terror təşkilatlarının Türkiyə tarixşünaslığında öyrənilməsi məsələsindən bəhs olunmaqdadır.[127]

Dördüncü fəslin ikinci paraqrafı **"1905-1906-cı illərdə erməni millətçilərinin terrorçuluq fəaliyyəti"** adlanır. Birinci rus inqilabı dövründə Azərbaycanda baş verən qanlı qırğınlara həssaslıqla yanaşan türk tarixçiləri hadisələrin obyektiv təhlilinə çalışmış, müvzu ilə bağlı sanballı əsərlər ərsəyə gətirmişlər. Bu baxımdan Türkiyə tarixşünaslığı H.Baykara, E.Uras, C.Taşkıran, S.Sertçelik, N.K.Sarıahmetoğlu, A.Attar, D.Çelik və digər müəlliflərin əsərləri ilə zənginləşmişdir.

Bakı hadislərindən sonra İrəvan və Naxçıvanda ermənilərlə azərbaycanlılar arasında münasibətlər həddindən artıq kəskinləşərək artıq mübarizənin hansı formada aparılacağı düşünülməkdə idi.[128] Ar-

---

[124] Laçiner, S. Ermeni Sorunu - Ayaklanma Tehcir ve İntikam / S.Laçiner. – Ankara: Karınca Yayınları, - 2016. – s.21

[125] Halacoğlu, Y. Osmanlı millet sistemi içnde ermeniler // Uluslararası Askeri Tarih Dergisi, - Ankara: - 2007. – s.116

[126] Baykara, H. Azerbaycan İstiklakl..., s.132

[127] Umudlu, V.U. Erməni komitələrinin terrorçuluq fəaliyyəti Türkiyə tarixşünaslığında (XIX yüzilliyin sonları) // "XX əsrdə türk müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransın materialları. Azərbaycan MEA Tarix İnstitutunun "Elmi Əsərlər"i – 2018. № 70, 71, 72,. - s. 482-485

[128] Osmanli Arşiv Belgelerinde Nah..., - s.243-251.

tıq həmin ilin martında İrəvan vilayətində bir sıra kəndlər ermənilər tərəfindən yandırıldı.[129] İrəvan hadisələrin ən qaynar bölgələrindən birinə çevrildi. İrəvan bölgəsindəki qırğınlara daşnak komitəsinin başçılarından olan Dro başçılıq edirdi.

Qarabağ bölgəsində də baş verən qanlı hadislərin qarşısının alınması üçün çarizmin ciddi tədbirlər görməməsi heç də təəccüblü deyildir. Digər bölgələrdə olduğu kimi burada da lazımi tədbirlərin görüləcəyi barədə vədlər verilir, hər iki xalqın nümayəndələri ilə görüşlər keçirilir, amma ciddi addımlar atılmırdı. C.Taşkıran yazır ki, Bakı, Gəncə, Tiflis, İrəvan və Naxçıvahda çox sayıda azərbaycanlının öldürülməsi və qətli törədən ermənilərin cəzasız qalmasına etiraz edən Qarabağdakı azərbaycanlılar iyul ayında Şuşa-Yevlax yolunda bir sərnişin avtobusuna, Bakı-Batumi dəmir yolu xəttində isə bir stansiyaya hucum etdilər. Şuşada baş verən qanlı hadisələr avqustun sonuna kimi davam etdi.[130] N.Keykurun yazır ki, *"Şuşa hadisələrindən xəbər tutan Gəncə əhalisi də Şuşadakı qardaşlarına kömək etməyə tələsdi. Çar idarəsi vaxt itirmədən Gəncədə də erməni-türk qırğını törətdi".*[131]

Baş verən qırğınların əsas səbəbkarı şövinist erməni millətçiləri, onların təmsil olunduqları "Daşnaksütyun" və digər partiya və təşkilatlar, habelə onlara yetərincə maddi-mənəvi dəstək verən çar Rusiyası olmuşdur. Çar hakim dairələri hər iki xalqı yeni başlayan birinci rus inqilabından kənarda saxlamaq üçün aralarına qanlı nifaq salmaqdan çəkinməmiş və qırğınların gedişini çox laqeydcəsinə kənardan müşahıdə etməklə kifayətlənmişlər.

Bəhs olunan bu məsələlər dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.[132]

---

[129] DABOA,Y.A.HUS, 500/6
[130] Taşkiran, C. Göstərilən əsəri, - s.84
[131] Keykurun, N. Göst. əsəri.., - s.9
[132] Umudlu, V.U. 1905-1906-cı illərdə erməni terrorçularının Azərbaycandakı fəaliyyəti Osmanlı arxiv sənədlərində // "XX əsrdə türkmüsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsrolunmuş IV Beynəlxalq elmi konfransın materialları. Azərbaycan MEA Tarix İnstitutunun "Elmi əsərləri", - 2017. № 64, 65, 66. - s.137-142

Dissertasiyanın beşinci fəsli **"XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli demokratik hərəkat Türkiyə tarixşünasliğinda"** adlanır. XX əsrin əvvəllərində baş vermiş milli-demokratik hərəkatdan bəhs etmiş Türkiyəli tarixçilər, xalqın təşkilatlanmasında milli ziyalıların rolunu xüsusi olaraq qiymətləndirmişlər. Xalqın erməni hücumlarından qorunmasında "Difai" təşkilatının rolunu yüksək qiymətləndirmiş, onun fəaliyyətinə öz rəğbətlərini bildirmişlər. Təşkilatın fəaliyyətində Ə. Ağaoğlunun fəaliyyəti xüsusilə qeyd olunmuşdur. Bu fəsildə həmçinin "Müsavat" partiyasının təşəkkülü, Azərbaycanın müstəqillik əldə edilməsində bu partiyanın, o cümlədən M.Ə.Rəsulzadənin rolunun Türkiyə tarixşünaslığında tədqiqi məsələlərindən bəhs olunmaqdadır.

Bu fəslin ilk paraqrafı **"XX əsrin əvvəllərində milli-demokratik hərəkat"** adlanır. Türk tarixçilərindən H.Baykara, G.S.Bozkurt, A.Caferoğlu, C.Çağla, N.Keykurun, H.Bal, B.Aslan, S.Şimşir və digər müəlliflərin əsərlərində XX əsrin əvvəllərində Azərbaycanda baş verən demokratik hərəkatın gedişini izləmək mümkündür. Həmçinin bir sıra məqalə və ensiklopediya maddələrində də milli-demokratik hərəkatı xarakterizə edən materiallar öz əksini tapmışdır.

Bu dövrdə Azərbaycanda xalqı da məktəb, xeyriyyə cəmiyyətləri açmaq, qəzet və jurnal çap etmək kimi bir sıra hüquqlar əldə etmişlər. 1905-1907 illər hadisələrindən bəhs edən G.S.Bozkurta görə *"inqilabın əvvəlində Rusiya ilə müsəlmanlar arasında hüquqi əngəllər aradan qalxmış, müsəlmanlar digər Rusiya vətəndaşları kimi öz haqq və hüquqlarını müdafiə etməyə başlamışdılar".* [133] Türk tarixçiləri hadisələrə münasibətdə öz obyektivliklərini qorumağa çalışmışlar.

XX əsrin əvvəllərində milli-demokratik hərəkatın Türkiyə tarixşünaslığında işlənmə səviyyəsi nəşr olunmuş elmi əsərlərdə təhlil olunmaqdadır.[134]

---

[133] Bozkurt, G.S. 1905-1907 illerdə Rusya Müsülmanlarının Kimlik Arayışı. / G.S.Bozkurt. - İstanbul: Doğu Kütuphanesi, - 2008. - 478 s.

[134] Umudlu, V.U. Azərbaycandakı 1905-ci il hadisələri Türkiyə tarixşünaslığında // JOURNAL of QAFQAZ UNİVERSİTY. History, Law And Political Sciences, - 2016. Number 1, Volume 4 - s.25-35

Beşinci fəslin ikinci paraqrafı **“Difai partiyası”** nın fəaliyyətinə həsr olunmuşdur. Bu paraqrafda türk tarixçilərindən H.Baykara, N.Keykurun, B.Aslan, S.Şimşir, T.Sünbül və digər müəlliflərin tədqiqatlarından geniş istifadə olunmuşdur.

Çarizmin xalqları qarşı-qarşıya qoymağı nəzərdə tutan “parçala və hökm sür” siyasətinin nəticəsində təşəkkül tapan Difai” partiyasının əsas hədəfi işğalçı çar zabitləri və erməni quldurları idi. Partiyanın qurulma səbəblərindən bəhs edən N.Keykurun yazır: *“Difai” zərurət qarşısında qurulan bir təşkilat idi. Xalqımıza qarşı qeyri-insani davranan, azğınlıq edən, erməni-azərbaycanlı mübarizəsində ermənilərə açıq şəkildə yardım edən çar məmurlarına layiq olduqları cəzanı vermək üçün təşkil olunmuşdu”.*[135]

“Difai” partiyasının qurulmasında Ə.Ağaoğlu ilə yanaşı Ə.Rəfibəyov, Ələkbər və Ələsgər Xasməmmədovlar, N.Yusifbəyli yaxından iştirak etmişlər. Əsas mərkəzləri Gəncə, Şuşa, Nuxa, İrəvan, Bakı və Tiflis olan və sonradan bir bölməsi də Qars şəhərində fəaliyyətə başlayan “Difai” partiyası Azərbaycan xalqının erməni terrorçularından müdafiəsində və çoxsaylı itkilərin qarşısının alınmasında çox mühüm və əvəzsis rol oynamışdır.

Türk tarixçilərinin “Difai” partiyasının fəaliyyəti ilə bağlı gəldiyi nəticələr dərc olunmuş məqalələrdə də öz əksini tapmışdır.[136]

Beşinci fəslin üçüncü paraqrafında **“Müsavat partiyası”**ndan bəhs olunur. H.Baykara, S.Şimşir, M.Bala, T.Sünbül və digərləri apardıqları tədqiqat işlərində “Müsavat”ın keçdiyi yola nəzər salmış, partiyanın gizli və çox mürəkkəb bir siyasi vəziyyətdə fəaliyyət göstərməsinə baxmayaraq öz işinin öhdəsindən layiqincə gəldiyini qeyd etmişlər. Partiya proqrqmının hazırlanması və milli ideyalarının həyata keçirilməsində partiyanın rəhbəri Məmməd Əmin Rəsulzadənin oynadığı rol təqdirəlayiq hesab edilmişdir.

---

135 Keykurun, N. Göst. əsəri, - s.10

136 Umudlu, V.U. “Difai” partiyasının qurulması Türkiyə tarixşünaslığında // Azərbaycan Milli Elmlər Akademiyası “Sosial Elmlər” jurnalı, - Bakı: - 2021. (ISSN: 2710-0820), №1, - s.112-117

S.Şimşir yazır: *"Müsavat" ilk qurulduğu zaman islamçı bir baxışa sahib idi. Birinci Dünya müharibəsi dövründə türkçü, müharibədən sonrakı milliyyətçi kimliyini qəbul etdi"*.[137] "Müsavat" partiyası çox keçmədən öz qələbəsini təsdiq edərək Azərbaycan xalq hakimiyyətinin qurulmasına nail ola bildi.

"Müsavat" partytasının fəaliyyəti ilə bağlı əldə olunan nəticələr çap olunmiş elmi əsərlərdə öz əksini tapmışdır.[138]

Dissertasiyanın son fəsli **"Birinci Dünya müharibəsi illərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət türk tarix ədəbiyyatinda"** adlanır. Bu fəsildə müharibə ərəfəsində və müharibənin başlanğıcında Azərbaycanda ictimai-siyasi vəziyyət, erməni "könüllü birlikləri"nin təşkili və törətdiyi vəhşiliklər, habelə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin işğala məruz qalan Türkiyə əhalisinə yardımı öz əksini tapmışdır.

Son fəslin birinci paraqrafı olan **"İctimai-siyasi vəziyyət"** türk tarixçilərindən H.Bal, B.Aslan, Y.Sarınay, S.Kılıç və digər müəlliflərin əsərləri əsasında qələmə alınmışdır. Bu əsərlərdə müharibə illərində Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyətdən bəhs olunmaqdadır. Müharibəsinin başlanğıcında ölkənin rəsmi siyasətini müdafiə edən Azərbaycan ziyalıları Rusiyanın Osmanlı dövlətinə qarşı müharibəsini etirazla qarşıladı və bunu müxtəlif formalarda dilə gətirdilər. Bu qardaş Osmanlı dövlətinə olan həssasiyyətdən irəli gəlirdi.

H.Bal qeyd edir ki, *"müharibə və bu müharibənin nəticəsi Azərbaycanın gələcəyini müəyyən edəcək təməl ünsürlərdən biri olaraq görünürdü. Bu səbəbdən də Osmanlı dövləti ilə Rusiya arasındakı münasibətlərin izlənməsi Azərbaycanın o zamankı tarixi məsələlərini daha aydın dərk etməmizə imkan verəcəkdir"*.[139] Birinci Dünya müharibəsi illərində Qafqazda, o cümlədən Şimali Azərbaycanda baş verən hadisələr haqqında Osmanlı dövləti üçün gizlin hazırlanan "Kafkasya

---

[137] Şimşir, S. Mehmet Emin..., - s.26

[138] Umudlu, V.U."Müsavat" partiyasının fəaliyyəti Türkiyə tarixşünaslığında (1911-1917-ci illər) // Tarix və onun Problemləri nəzəri, elmi, metodik jurnal, Bakı Dövlət Universiteti, - 2021. (İSSN 2708-0641) №2, - s.262-266

[139] Bal H. Göst. əsəri, - s.27

Ahvaline Dair Rapor”[140] mühüm əhəmiyyət kəsb edir. Bu hesabat Osmanlı dövlətinə Şimali Azərbaycandakı vəziyyəti düzgün dəyərləndirməyə və adekvat addımlar atmağa imkan vermişdir.

Şimali Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyətin Türkiyə tarixçiləri tərəfindən tədqiqi barədə dərc olunmuş məqalədə də məlumat verilməkdədir.[141]

Altıncı fəslin ikinci paraqrafı **“Erməni könüllü birliklərinin vəhşilikləri”** adlanır. E.Uras, S.Laçiner, A.N.Kurat, M.Perinçek, Y.Halacoğlu, Y.Sarınay və digər tarixçilərin əsərlərində öz əksini tapmışdır. Türkiyə tarixçiləri təkzibolunmaz faktlarla erməni vəhşiliklərini təsbit etmişlər.

N.Kurat yazır ki, *“müharibəni bir fürsət bilən ermənilər köhnə xəyalları olan "Böyük Ermənistan"ı Daşnaksütyunun rəhbərliyi ilə qurmağa çalışdılar”*.[142] E.Uras da, 1914-cü ildə Osmanlı dövlətinin müharibəyə daxil olmasından sonra *“erməni dəstələrinin Moskva orduları ilə birlikdə hərəkət edərək türk ordusunu arxadan vurmağa başladığını”* qeyd edir.[143]. Erməni könüllü birliklərinin zabit heyətinin əksəriyyəti 1914-ci ildə əff olunaraq azadlığa çıxmış daşnak terrorçularından ibarət idi.

Müharibənin başlanğıcını səbirsizliklə gözləyən erməni millətçilərinin Azərbaycan və Şərqi Anadoludakı müsəlman türk xalqını məhv edərək, etnik məsələləri öz xeyirlərinə həll etmək istəkləri bir nəticə vermədi. Xəyal edilən “Ermənistan” dövlətinin qurulması üçün göstərilən fəaliyyətlərin nəticəsi isə çox ağır oldu.

---

[140] Kılıç, S. Kafkasya’ya Dair (1916-1917) Osmanlı İstihbaratının Yayımladığı Bir Rapor // Tarih Araştırmaları Dergisi (TAD), Ankara: - 2015. Çild 34, Sayı 58. - s.687-714

[141] Umudlu, V.U. Birinci dünya müharibəsinin əvvəllərində erməni terrorçularının Azərbaycandakı fəaliyyətinə dair (Türkiyə tarixşünaslığının materialları əsasında) // "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920)". III Beynəlxalq elmi konfransın materialları, AMEA Tarix İnstitutunun “Elmi Əsərləri”, - 2015. № 56, 57, 58.. - s.225-230

[142] Kurat, A.N. Göst. əsəri, - s.264.

[143] Uras, E. Göstətilən əsəri

Bu paraqrafda gəlinən nəticələr nəşr olunmuş elmi məqalədə ətraflı şəkildə işıqlandırılmışdır. [144]

Altıncı fəslin son paraqrafı **"Bakı müsəlman xeyriyyə cəmiyyətiinin Türkiyə əhalisinə yardımı"** adlanır. Cəmiyyət 1905-ci ildə H.B.Zərdabi və H.Z.Tağıyevin birgə təşəbbüsü ilə təsis olunmuşdur. Cəmiyyətin Türkiyədəki fəaliyətinin araşdırılmasında B.Aslan, N.Keykurun, F.Erdoğan, H.Baykara, Y.Arslan və digər müəlliflərin əsərlərindən istifadə olunmuşdur.

Cəmiyyətin köməyi ilə Qars, Ərzurum, Ərdəhan, Kagızman, Batum və Iğdır bölgələrində minlərlə insanı səfalət və fəlakətlərdən xilas edildi. B.Aslan qeyd edir ki, *"cəmiyyət Birinci Dünya müharibəsi illərində Rusiya işğalı altında olan Qafqaz, Şərqi Anadolu və Şərqi Qara dəniz bölgələrindəki müsəlman-türk əhaliyə humanitar yardım göstərmiş, rus idarəçilərinin haqsızlıqlarına və ermənilərin təqiblərinə qarşı onlara qol-qanqad gərmiş və hüquqlarını müdafiə etmişdir"* .[145]

"Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Türkiyədəki fəaliyyətini tədqiq edən tarixçilərin araşdırmaları çap olunmuş məqalələrdə də öz əksini tapmışdır.[146]

Dissertasiyanın **nəticəsi** olaraq qeyd etmək lazımdır ki, XIX-XX əsrin əvvəllərində tariximizin müxtəlif problemlərinin obyektiv şəkildə tədqiq olunaraq elmi ictimaiyyətin diqqətinə çatdırılması Azərbaycan tarixşünaslığının qarşısında duran ümdə məsələlərdən biridir. Bu baxımdan Türkiyə tarixşünaslığına müraciət və türk tarixçilərinin əldə etdiyi nəticələrin tərəfimizdən təhlil olunması mühüm əhəmiyyət kəsb edir.

Tədqiq olunan dövrdə qarşıda duran problemlər sırasına Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkə rejimi, iş-

---

[144] Umudlu, V.U. Birinci Dünya Savaşı'nda Ermeni Teror Örgütleri'nin Devlet Kurma Girişimleri // 100.Yılında 19 Mayıs Ve Milli Mücadele Uluslararası Sempozyumu, Samsun: 2019, Türk Tarih Kurumu, Özet Kitapçığı, - s.49.

[145] Aslan, B. Kardaş Kömegi..., - s.55

[146] Umudlu, V.U. "Baki Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Qars əhalisinə köməyi tarixindən (Betul Aslanin əsəri əsasinda) // Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adınağ Şərqşünaslıq İnstitutu Şərq Araşdırmaları elmi-nəzəri jurnalı, - 2021. №3, - s.102-108

ğalın gedişində və sonralar əhalinin çarizmə qarşı apardığı azadlıq mübarizəsi, Türkmənçay və Ədirnə müqavilələri əsasında ermənilərin kütləvi şəkildə Azərbaycan ərazisinə köçürülərək erməni məskənlərinin, o cümlədən "erməni vilyaəti"nin təşkili, Azərbaycan əhalisinin Osmanlı torpaqlarına məcburi köç etdirilməsi, erməni millətçiləri və terror təşkilatlarının Azərbaycanda həyata keçirdikləri qırğın siyasəti kimi mövzuları aid etmək olar.

"Difai", "Müsavat" və digər təşkilatların xalqın müdafiəsi istiqamətində göstərdiyi əzmkarlıq, Azərbaycan ziyalıları və milli burjuaziyanın məqsədyönlü ictimai-siyasi fəaliyyəti, "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin insanlıq faciəsinin yaşayandığı Qars və Ərzurum xalqına yardımı və eləcədə, Osmanlı dövləti ilə mövcud qarşılıqlı əlaqələr işıqlandırılması da bu tip məsələlərdəndir.

Sadalanan problemləri tədqiqatlarının predmetinə çevirən türk tarixçiləri geniş araşdırma işləri aparmış, məsələlər obyektiv şəkildə təhlil olunmuş və əldə olunan nəticələr Türkiyə elmi ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Tədqiqatlar nəticəsində problemlə bağlı Türkiyə tarixşünaslığında sanballı əsərlər işıq üzü görmüşdür.

Türkiyəli tarixçilər araşdırılan məsələlərə həssaslıqla yanaşmış, Azərbaycan xalqının haqlı mövqeyinə və apardığı azadlıq mübarizəsinə öz rəğbətlərini ifadə etmişlər. Problemin obyektivliyini qorumaq üçün müəlliflər arxiv sənədlərindən də geniş istifadə olunmuşdur. Qeyd olunmalıdır ki, problemlə bağlı bir çox xarici nəşrlər də türk dilinə tərçümə edilərək elmi ictimaiyyətin istifadəsinə verilmişdir.

Problemlə bağlı Türkiyə tarixşünaslığının nümayəndələri olan M.Saray, H.Baykara, N.Keykurun, N.İpek, C.Gökçe, A.Saydam, M.Bala, S.M.Bilge, A.N.Kurat, K.Gürün, Ö.G.İşyar, E.Uras, B.Aslan, C.Taşkıran, A.Caferoğlu, K.Karabekir, S.Şimşir, C.Çağla, C.Barlas və bir çox tarixçilər araşdırılan problemlə bağlı sanballı əsərlər ortaya qoymuş, hadisələrin araşdırılmasında lazımı töhvələrini verə bilmişlər.

## Dissertasiya işinin mövzusuna dair dərc olunmuş elmi əsərlərin siyahısı:

1. Kuzey Azerbaycanın çar Rusyası tarafindan işğali ve sömürgeçilige karşı mücadele (1801–1826) // Aktaran C.Yavan, Türk Dünyası Araşdırmaları, - İstanbul: - 2000. Sayı, 124, - s.55–76
2. Kuzey Azerbaycanın çar Rusyası tarafindan işğali ve sömürgeçilige karşı mücadele // Aktaran C.Yavan, Türk Dünyası Araşdırmaları, - İstanbul: - 2000. Sayı, 125, - s.185–202
3. 1806–1813 yılları arasında halkın sömürgeçilige karşı mücadelesi – Gülistan anlaşması // Aktaran C.Yavan, Türk Dünyası Araştırmaları, - İstanbul: - 2000. Sayı 127, - s.115–128
4. Rusya ile İranın yapmış olduğu iki müharibe arasındakı devirde halkın sömürgeçilige karşı mücadilesi // Aktaran C.Yavan, Türk Dünyası Araştırmaları, - İstanbul: - 2000. Sayı 128, - s.151–162
5. İnzibati amirlik, iktisadi zülüm və manevi terör. Azerbeycan Yeni isyanlar arefesinde // Aktaran C.Yavan, Türk Dünyası Araştırmaları, - İstanbul: - 2000. Sayı 129, - s. 95–113
6. Umudlu, V U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801–1828) / V.U.Umudlu. - Bakı: Elm, - 2004. - 183 s.
7. Из истории Кюрекчайских договоров/ ГАРАБАГ: КУРЕКЧАЙ-200, - Баку: - 2005. - с.137-147 (həmmüəllif)
8. 1826-1828-ci illər hərbi əməliyyatlarının başlıca xüsusiyyətləri, TÜRKMƏNÇAY-180 // Azərbaycan Tarix Qurumu Azərbaycan Respublikası Hərb Tarix Müzeyi, - Bakı: - 2008. - s.15-22
9. İRƏVAN XANLIĞI. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / Red.: Yaqub Mahmudov. Bakı: Azərbaycan, - 2009. - 574 s. (həmmüəllif)
10. THE İRAVAN KHANATE. The Russian occupation and the relocation of Armenians to the lands Nort-Azerbaijan / - Baku: - 2010. (həmmüəllif)
11. ИРЕВАНСКОЕ ХАНСТВО. Российское завоевание и переселение армян на земли Северного Азербайджана / - Баку: - 2010. (həmmüəllif)

12. Azerbaycan Hanlığı Erivan // Türk Dünyası “TARİH” dergisi, - İstanbul: - 2011. Sayı 299, - s.59-60
13. Başbakanlık Osmanlı Arşivlerinde Azerbeycan (XIX–XX yüzyılin başlarında) // Türk Dünyası “TARİH” dergisi, - İstanbul: - 2012. Sayı 312, - s.61-62
14. Azərbaycan xalqının müstəmləkəçiliyə qarşı mübarizəsi tarixindən – 1826-cı il üsyanları // "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" adlı beynəlxalq elmi konfransın materialları, AMEA Tarix İnstitutunun elmi əsərləri, - Bakı: - 2013. - s.163-166
15. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı Türkiyə tarixşünaslığında // Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransın materialları, Qafqaz Universiteti, - Bakı: - 2015. - s.1425
16. Ərzurum Konqresindən sonra ermənilərin pozuculuq fəaliyyətinə dair // "Ermənilərin soyqırım siyasəti bəşəriyyətə qarşı cinayətdir" adlı beynəlxalq elmi konfransın materialları, Sumqayıt Dövlət Universiteti, - Sumqayıt: - 2015. - s.123-125
17. XIX yüzilliyin 90-cı illərində erməni terror təşkilatlarının fəaliyyətinə dair (Türkiyə tarixşünaslığı əsasında) // Qafqaz tarixinin aktual məsələləri beynəlxalq konfrans, Gəncə Dövlət Universiteti, - Gəncə: - 2015. - s.318-32
18. Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalından sonra yerli əhalinin Türkiyəyə köçü tarixindən // JOURNAL of QAFQAZ UNİVERSİTY, History, Law And Political Sciences, - 2015. Number 1, Volume 3, - s.15-22
19. Gülistan Antlaşması Arefesinde Azerbaycan Halkının Sömürgeçiliğe Karşı Mücadelesi // YENI TÜRKİYE,. - Ankara: - Temmuz Aralık 2015. Yıl 21, Cilt V, sayı 75, - s.278-285
20. Birinci dünya müharibəsinin əvvəllərində erməni terrorçularının Azərbaycandakı fəaliyyətinə dair (Türkiyə tarixşünaslığının materialları əsasında) // "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920)". III Beynəlxalq elmi konfransın materialları, AMEA Tarix İnstitutunun “Elmi Əsərləri”, - 2015. № 56, 57, 58. - s.225-230

21. Türk tarixçisi Cəfər Barlasın “Hicrətdəki Dağıstan” əsərində Azərbaycanlı mühacirlər // “IV İnternational Scientific Conference of Young Researchers”. QAFQAZ UNİVERSİTY, - 2016. - s.1691-1692
22. Türkmənçay müqaviləsindən sonra çarizmin Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti Türkiyə tarixşünaslığında // Bakı Universitetinin XƏBƏRLƏRİ. Humanitar Elmlər Seriyası, - 2016. Sayı 3,. - s.99-106
23. Azərbaycandakı 1905-ci il hadisələri Türkiyə tarixşünaslığında // JOURNAL of QAFQAZ UNİVERSİTY. History, Law And Political Sciences, - 2016. Number 1, Volume 4 - s.25-35
24. 1905–1906-cı illərdə erməni terrorçularının Azərbaycandakı fəaliyyəti Osmanlı arxiv sənədlərində // “XX əsrdə türkmüsəlman xalqlarına qarşı soyqırımları” mövzusuna həsrolunmuş IV Beynəlxalq elmi konfransın materialları. Azərbaycan MEA Tarix İnstitutunun “Elmi əsərləri”, - 2017. № 64, 65, 66,. - s.137-142
25. Şimali Azərbaycandakı 1830 il xalq hərəkatı Türkiyə tarixşünaslığında // Tarix Və Onun Problemləri, - 2017. Sayı1, - s.27-301
26. Азербайджанские эмигранты в трудах турецких историков // Актуальные Проблемы Гуманитарного Знания в XXI Веке: Состояние и Перспективы Развития к 90-летию Академика Г.Г. Гамзатова. Материалы Международной научной конференции, Махачкала: - 2016. - с. 732-736
27. Проблемы миграции из Северного Азербайджана в Анатолию в турецкой историографии (вторая половина XIX века) // Образование, наука и культура Кавказа: Традиции и современность. Материалы Международной научной конференции, посвященной 25-летию образования Республики Ингушетия, - Магас: - 2017. - с. 276-279
28. 1828–1829.Yıllar Rus-Türk Müharebesi ve Gümüşhane Civarında Savaşlar // I Uluslararası Gümüşhane Sempozyumu. Bildiriler, - Gümüşhane: - 2017.
29. Азербайджанские иммигранты в турецкой Историографии // Кавказоведение: история и современность. Материалы

Международной научной конференции, - Магас: - 2017. - с.507-515
30. XIX. Yüzyılın Rus Tarihşinaslığında 93. Harbi (1877-1878) Osmanlı-Rus Harbi ve Plevne Müdafaası // II Uluslararası Plevne Kahramanı Gazi Osman Paşa Ve Dönemi Sempozyumu, - Tokat: - 2017. - s.432-443
31. Erməni komitələrinin terrorçuluq fəaliyyəti Türkiyə tarixşünaslığında (XIX yüzilliyin sonları) // "XX əsrdə türk müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransın materialları. Azərbaycan MEA Tarix İnstitutunun "Elmi Əsərlər"i, - 2018. № 70, 71, 72, - s. 482-485
32. İravan Hanlığı: Rusya İşğali ve Ermenilerin Kuzey Azerbaycan Topraklarına Göç Ettirilmesi / Edit.: Yaqub Mahmudov. - Ankara: Atatürk Araştırma Merkezi Yayınları, - 2018. - 568 s. (həmmüəllif)
33. 1877-1878. Yıllarında 18.Rus Piyade Alayının Türkiyeye Yürüyüşünden Hatıralar // Osmanlıdan Cumhuriyyete HATIRAT Uluslararası Sempozyumu, Özet Kitapçığı, - Aydın: - 2018. - s.344 – 346
34. Rus Dilli Kaynaklarında Prut Savaşı (həmmüəllif)// Lale Devri’nde Osmanlı Devleti ve Nevşehir, - Ankara: - Kasım 2018. - s.910-920
35. 1919.Yılında Kuzey Azerbaycan ve Doğu Anadolu’da Ermeni Mezalimi // TARİHTEN GÜNÜMÜZE AYINTAB – GAZİANTEP, Uluslararası Gaziantep Tarihi Sempozyumu, - ANKARA: - 2018. - s.441-460
36. Birinci Dünya Savaşı’nda Ermeni Teror Örgütleri’nin Devlet Kurma Girişimleri // 100.Yılında 19 Mayıs Ve Milli Mücadele Uluslararası Sempozyumu, - Samsun: Türk Tarih Kurumu - 2019. Özet Kitapçığı, - s.49.
37. Kafkasyalı Mühacirler’in Anadolu’da Yeni Meskenleri (XIX. Yüzyılın İkinci Yarısından XX. Yüzyılın Başlarına Kadar) (həmmüəllif) // Altay Toplulukları Mesken ve Mesken Kültürü. Altay Communities Dwellings and Home Culture, - İstanbul: - 2019. - s.327-337

38. National movement in 1830 in North Azerbaijan in Turkish historiography // Ғылыми-Педагогикалық Журнал Оңтүстік Казақстан Мемлекеттік. Педагогикалық Институтының Хабаршысы // Вестник Южно-Казахстанского Государственного Педагогического Института. Научно Педагогический Журнал, - Шымкент – 2017. (ISSN 2415-8186), № 4 (14), - s.54-59
39. XIX. Yüzyılda Kuzey Azerbaycandan Osmanlı İstanbulu'na Göçler // Osmanli İstanbulu V, Istanbul: 29 Mayıs Üniversitesi Yayınları, - 2017. - s.287-299
40. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının başlanması Türkiyə tarixşünalığında // Akademik Tarih ve Düşünce Dergisi, -2019. Cilt 6, Sayı 5, - s.257-273.
41. Причины вынужденной миграции из Северного Азербайджана в Анатолию в трудах турецких историков // Издательство: Журнал "Вопросы истории", - 2020. ISSN: 0042–8779. Ном: 5, год:, - с.273-278
42. ŞƏKİ. Ən qədim zamanlardan günümüzədək / Elmi redaktor Yaqub Mahmudov. - Bakı: Turan NRB, - 2020. - 708 s. (həmmüəllif)
43. Турецкие историки о политической деятельности М.Э.Расулзаде (1902–1917 гг.) // Материалы международной научно-практической конференции посвященной 100-летию образования ДАССР, 90-летию открытия ДГУ и 60-летию освоения космос, - Кизляр – 2021. - с.50–54
44. XIX əsrin əvvəlində İrəvan xanlığının siyasi vəziyyətinə dair (Türkiyə tarixşünaslığı əsasında) // Bakı Avrasiya Universitetinin "Sivilizasiya" elmi-nəzəri jurnalı, - 2021. Cild 10, №1 (46),. - s.113-119
45. İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalı Türkiyə tarixşünaslığında // Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix, İnsan və Cəmiyyət . Elmi – nəzəri və elmi – metodik jurnalı, - 2021. №1 (31),. - s.100-108
46. Türk tarixçisi Betul Aslanın əsərlərində "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Ərzurum əhalisinə yardımı məsələləri // Pedaqoji

Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji psixoloji elmlər seriyası, - 2021. C.69, №1., - s.166-173

47. “Difai” partiyasının qurulması Türkiyə tarixşünaslığında // Azərbaycan Milli Elmlər Akademiyası “Sosial Elmlər” jurnalı (ISSN: 2710-0820), - Bakı: - 2021. №1, - s.112-117
48. “Baki Müsəlman Xeyriyyə Cəmiyyəti”nin Qars əhalisinə köməyi tarixindən (Betul Aslanin əsəri əsasinda) // Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adınağ Şərqşünaslıq İnstitutu Şərq Araşdırmaları elmi-nəzəri jurnalı, - 2021. №3, - s.102-108
49. Türkmənçay müqaviləsi Türkiyə tarixşünasliğinda // Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası (ISSN: 2520-2014), - 2021. C.69, №2, - s.139-146
50. Türkiyə tarixçiləri ermənilərin Şimali Azərbaycan torpaqlarina kütləvi köçü barədə (1828-1829-cu illər) // Sivilizasiya. Elmi-nəzəri jurnal, Avrasiya Universiteti, - 2021. Cild 10, №3 (48), , - s.69-75
51. Турецкие историки из истории Гюлистанского договора // Материалы международной научно-практической конференции, посвященной 286 годовщине города Кизляра и 90-летию открытия ДГУ, Кизляр: - 2021. - с.317-320.
52. Rusiya işğalı ərəfəsində Şimali Azərbaycanda siyasi vəziyyət Türkiyə tarixşünasliğinda // Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Tarix, İnsan və Cəmiyyət” elmi-nəzəri və elmi metodik jurnalı, - 2021. №2 (32), - s.74-81
53. ”Müsavat” partiyasının fəaliyyəti Türkiyə tarixşünaslığında (1911-1917-ci illər) // Tarix və onun Problemləri nəzəri, elmi, metodik jurnal, (İSSN 2708-0641) Bakı Dövlət Universiteti, - 2021. №2, - s.262-266
54. Cavad xanın Rusiya işğalına qarşı mübarizəsi Türkiyə tarix-şünaslığında (XIX əsrin əvvəli) // Bakı Universitetinin XƏBƏRLƏRİ. Humanitar Elmlər Seriyası, - 2021. №1, - s.103-109.
55. 1894.Yılında Azerbaycanın Areş Kazasından (Gence Vilayeti) Osmanlı Devletine Göçler // 18.Türk Tarih Kongresi Türk Tarih Kurumu, Ankara: - 2022. V Cilt, - s.285-294

56. Национально-демократическое движение в Северном Азербайджане в начале XX века в турецкой историографии. // СОВРЕМЕННАЯ НАУЧНАЯ МЫСЛЬ, НАУЧНЫЙ ЖУРНАЛ НИИ ИСТОРИИ, ЭКОНОМИКИ И ПРАВА. – Москва: 2022. №4, с.247-252.
57. XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən. Bakı: Füyuzat 2023. Həmmüəllif, 306 s.
58. Из истории города Иревана в XIX - нач. XX вв.. Баку: 2023. Həmmüəllif, 328 s.
59. Политическая ситуация Бакинской области в документах Османского архива (1800-1828 гг.) // Qo‘qon Davlat Pedagogıka İnstıtutı İLMIY XABARLAR, НАУЧНЫЙ ВЕСТНИК, Кокандский ГПИ. 3 (11)-2023.
60. Rusiya işğalından sonra Şəki əhalisinin Anadoluya məcburi köçü tarixindən (Türkiyə mənbələri əsasında) // AZƏRBAYCAN TARİXŞÜNASLIĞI, - 2024 / Cild (85) №1 ISSN 2523-4765, s.100-107.

Dissertasiyanın müdafiəsi "27" fevral 2025-ci il tarixində saat 10⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.01.2025
Kağızın formatı: A5
Həcm: 94 637
Tiraj: 100